بسم الله الرحمن الرحيم

TBİLİSİ 2018

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველოს სამეცნიერო საბჭოს ინიციატივით და რეკომენდაციით

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftiliyinin elmi şurasının təşəbbüsü və məsləhəti ilə nəşr olunub.

---

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო მადლობას უხდის საქართველოს ახალგაზრდობის დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის გამოცემის ნებართვისათვის

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına təşəkkür edir.

**Kitabın orijinal adı:** Dar ağacındaki KURAN ŞEHİTLERİ
**Müəllif:** Adem SARAÇ
**Nəşrə Hazırlayan:** Hacı BƏKİROĞLU
**Anadolu türkcəsindən**
**Azərbaycan türkcəsinə uyğunlaşdıran:**
Tural NƏSİROV
**Dizayn:** Elsevər ƏHMƏDOV

---

Esma Oniani st, Tbilisi, Georgia ,#23
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0159
E_mail: info.amag77@gmail.com

# ყურანისათვის მოწამეები ჩამოსახრჩობ ხეზე

Dar ağacındakı

# QURAN ŞƏHİDLƏRİ

- Rəci Hadisəsi -

-რაჯის ამბები-

**Adem SARAÇ**

ადემ სარაჩი

**Allah-Təala belə buyurur:**

**Doğrudan da, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır.** (Çünki) **onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər.** (Bu, Allahın) **Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur.**

**Tövbə edən, ibadət edən, həmd edən, oruc tutan** (yaxud cihad edən)**, rüku və səcdə edən, yaxşı işlər görməyi buyurub pis əməllərə qadağan edən və Allahın hüdudlarını qoruyan o möminləri müjdələ.**

(Tövbə, 111-112)

**Peyğəmbərimiz (s.ə.s) belə buyurmuşdur:**

*Peyğəmbərimiz (s.ə.s) buyurmuşdur:*

*“Üç şey var ki, bunlar kimdə olarsa, o, imanın dadını alar:*

*Allah və Rəsulunu, bu ikisindən başqa hər şeydən çox sevmək.*

*Sevdiyini Allah üçün sevmək.*

*(Allah onu küfrdən qurtarandan sonra) küfrə qayıtmağı atəşə atılmaq kimi çirkin və təhlükəli bir iş kimi görmək...”*

Buxari, İman 9, 14; İkrah 1; Ədəb 42.

# TƏQDİMAT

Rəhman və Rəhim olan Allahın adıyla...

Uca Allaha həmd, Kainatın Əfəndisinə, ailəsinə, alinə və əshabına, ətbəinə salət və salam olsun.

Bilindiyi kimi, Peyğəmbərimizi (s.ə.s) görmək səadətinin yanında, görərək ona inanan, iman üzrə yaşayıb, bu iman üzrə ölən bəxtiyar möminlərə Səhabə deyilir.

Hər biri bir ulduz olan səhabeyi-kiram həzrətlərindən hansının yolunu özümüzə yol bilib, hansının izindən getsək, hidayət üzrə olacağımız bir həqiqətdir. Burdan hərəkət edərək, hamısı mümkün olmasa da, heç olmasa bir qismini çox yaxşı tanımaq borcumuzdur. Cənnətdə onlarla qonşu olmağın yolu bu dünyada ikən onları tanıyıb, onların izi ilə getməkdən keçir.

İslamı öyrənib yaşamağın əsasında, heç şübhəsiz ki, Qurani-Kərim və Sünneyi-Səniyyə vardır. Bunları düzgün bir şəkildə öyrənib həyatımıza əks etdirməyin yolu Peyğəmbərimizi və onun əshabını doğru mənbələrdən öyrənərək, onları nümunə götürməyə çalışmaqdır.

Bilindiyi kimi, imanın əlamətlərindən biri də dəyişilməkdir; həm də hər şeyimizlə...

Eynilə, əshabi-kiramda olduğu kimi... Çünki onlar: şirkin, küfrün və zülmün qaranlıqlarından sıyrılıb İslamın nuru ilə nurlananda həyatları tamamilə dəyişmiş, yarıvəhşi bədəvilikdən Əsri-Səadət incilərinə çevrilmiş və hər şeyləri ilə yenidən doğulmuşdular, sanki...

**"Allah möminlərin canlarını və mallarını cənnət qarşılığında satın almışdır"**(ət-Tövbə, 111) ayeyi-kərimə–sinin işığında hərəkət edən o möminlər hər gün yeni bir nümunəvi tablo ortaya qoyurdular. Hər döyüş, hər yürüş və hər səfər bu tablonu tamamlayan bir xətt, bir işıq, bir parıltı, bir rəng və bir nur idi...

Bunun kimi, Rəci Hadisəsi də bu tablonun ən açıq nümunələrindən biridir.

Rəci hadisəsi qəbilələrə müəllim olaraq göndərilən bir ovuc səhabənin məcburən içinə düşdükləri bir döyüş olub, fədakarlıq barəsində hər birimizə bənzərsiz bir dərs verməkdədir. Belə ki, bu özünü fəda etmə sənəti qarşısında ürəklərimiz lərzəyə düşəcək qədər...

İzzətin, gücün, qüvvətin, qərarlılığın, fədakarlığın, ima–nın, isarın, ixlasın, sevginin, eşqin, məhəbbətin... nə ol–duğunu, necə olduğunu bu hadisədə açıq-aşkar görürük. Eyni zamanda, Haqqa və həqiqətə imanın, təslimiyyətin insanı nə hala gətirdiyini, necə və nəyi fəda edib, necə və nəyi qazandığını da görməkdəyik.

Peyğəmbər sevgisindəki dəyişməz meyar əshabi-kiramın daim könlündə, dilində və əməlində idi.

"Təkcə mən deyil, heç bir müsəlman onun ayağına bir tikanın batmasına belə təhəmmül edə bilməz!"

Rəci hadisəsi sevənin sevdiyi uğrunda canını fəda etməsinin ibrətamiz bir dastanıdır...

Bu kitabda ümumi bir baxışla səhabələrin imanını, ixlasını, isarını, ədəbini, nəzakətini, səbatını, qəhrəmanlığını; qısaca, Allah və Rəsuluna, Quran və sünnəyə - İslama bağlılığını ələ almağa çalışdıq.

Bu sahədəki əsas mənbələrin – mümkün olduğu qədər – hamısından istifadə edərək, əsas və ikinci dərəcəli mənbələrin yanında, yaxın tarixdə yazılan əsərlər də incələnib, tarixi hadisələrə əsaslanaraq hazırlanan bu əsər yalnız Allah və Rəsulunun razılığı məqsədilə edilən mütəvazi bir çalışmadır. Sevənin sevgilisinə çatmaq cəhdi ilə meydana gələn radiofonik bir ssenaridir. İnanmış, təslim olmuş və onlar olmadan İslamın düzgün başa düşülə bilməyəcəyinin başa düşülməsi cəhdidir...

Bundan başqa, əsərin yazılışında, əlaqədar hadisələr mümkün olduğu qədər canlandırılıb hərəkətləndirilərək, hadisələrin içindəki obrazları və digər qəhrəmanları danışdıraraq daha asan anlaşılır formaya salınmışdır. Bütün bunlar xəyal məhsulu olmayıb, tamamilə bununla bağlı mənbələrdən alınaraq, yalnız bir qismi qarşılıqlı dialoq şəklinə salınmışdır. Eyni zamanda, müxtəlif mənbələrdə dağınıq bir şəkildə nəql olunan hadisələr bir yerə cəm edilərək, bir-birinə bağlanaraq mövzu bütünlüyü içində verilməyə çalışılmışdır...

Çalışmaq bizdən, müvəffəqiyyət Allahdandır...

Adəm SARAÇ

*Van, 16 şəvval 1420 / 23 yanvar 2000*

**ADƏM SARAÇ**

1958-ci ildə Türkiyənin Artvin/Şavşaq bölgəsində dünyaya gələn yazıçı, 1984-cü ildə Mərmərə Universiteti İlahiyyat Fakültəsi məzunu olub, Təhsil Nazirliyi nəzdindəki müxtəlif məktəblərdə uzun illər müəllim olaraq işlədikdən sonra, 1993-cü ildə Yüzüncü İl Universiteti İlahiyyat Fakültəsinə müəllim olaraq təyinat aldı. Hal-hazırda bu universitetdə işləməyə davam edən Saraç evlidir və üç uşaq atasıdır.

**Nəşr olunmuş əsərləri:**

*Kitab və insan (şeirlər), Müəllimim, gecikmə! (teatr), Qaziköyün zəfəri (qrafik oyun), Qanayan yara (teatr), Mən müəlliməm (teatr), Özünə gəl, bacı! (teatr), Vətənimi istəyirəm (qrafik oyun), Bosna-Hersekdən məktub (teatr/dram), Ayrıldıqca qovuşanlar (roman, Mühacir Müslim Nurullah imzasıyla), Adam axtarıram (parodiya, roman), Budağından qopardılan çiçək (roman, M. M. N. imzasıyla), Asim baba (teatr), Batildən haqqa hicrət (teatr), Gülün gülləri (peyğəmbərimizin qızları), Hz. Peyğəmbərin qızlarında davranış motivləri (seminar), Rəsulullahın həyatında dəruni ölçü (seminar), İslamda müsəlman şəxsiyyəti çərçivəsində səhabeyi-kiramda şəxsiyyət-qulluq münasibəti (panel), Qovuşmaq üçün ayrılmaq şərtdir (məqalə), Dəyişmək periodunda nəbəvi metod (panel), Böyük fəth (məqalə), Keyləşdirici və asılılıq yaradan maddələrə qarşı peyğəmbərimizin münasibəti (panel), Sevgili ilə görüş (radiofonik sınama, M. M. N. imzasıyla), İzində getmək (xatirələr), İslamda çalışmaq çərçivəsində səhabədən nümunələr (panel), İçimizdəki zəlzələ (məqalə), Müsəlmanam mühacirəm mücahidəm (Hz. İkrimənin həyatı), Məscidi-Nəbidə iftar (məqalə), Sürgün quşu (roman, M. M. N. imzasıyla)*

**İTHAF;**

O canlara

Can atan

Canlara

## HEYƏT

Yəsrib Mədinə olmuşdu...

Mədineyi Münəvvərə (Nurlu Mədinə) olmuşdu Yəsrib. Artıq elə tanınır və elə qəbul edilirdi. Vaxt ötdükcə Yəsrib adı unuduldu. Yəsrib şəhərinin adı Mədinə oldu, Mədinə qaldı...

Hicrətin dördüncü ilinin Səfər ayı başlamışdı. Hicrətdən üzü bəri, düz dörd il keçmişdi. Bu dörd il içində Mədinədə, keçmiş Yəsribdə çox şey dəyişmişdi. Hətta, sadəcə Mədinədə deyil, bir çox yerlərdə bir çox şeylər dəyişmişdi.

Bədir və Uhud kimi böyük döyüşlər olmuşdu. Müsəlmanlara qarşı bir çox hücumlar olmuşdu və onlar da bir çox Səriyyələr (axınlar) etmişdilər. Daha doğrusu, bəziləri istəməsələr də, müsəlmanları qəbul etmək məcburiyyətində qalmışdılar. Ancaq, təbii ki, bütün bunları həzm edə bilməyənlər də var idi!

Müsəlmanların Mədinədə sarsılmaz bir İslam binası yüksəltdiklərini görən İslam düşmənləri sanki dəli olurdular. Mədinə şəhər-dövlətinin getdikcə daha da qüvvətlənməsi müşrik və münafiqlərin qəlbinə qorxu salır, hər birini təlaşlandırırdı. Əvvəlcə bu yüksəlişin qarşısını kəsmək, sonra da yıxmaq üçün bütün güclərini səfərbər etmisdilər.

Meydan müharibələrində müvəffəq ola bilməyəcəklərini artıq başa düşmüşdülər. Ona görə də başqa yollar axtarırdılar. Peyğəmbəri və səhabələrini əzmək, güclərini zəiflətmək fikrində idilər. Həmin dövrdə bu fikri ən münasib bir yol olaraq etmişdilər. Amma bunu necə edəcəklərini bilmirdilər. Hiylənin hər cürünü götür-qoy edirdilər.

İslama və Müsəlmanlara inadkarcasına və azğınlıqla düşmənçilik edənlər başa düşdülər ki, onların gözlərini qamaşdıran, ödlərini qoparan İslam nuruna kölgə salmağa gücləri çatmayacaq. Belə olan halda hər cür ağlagəlməz hiylələrə baş vurmaqdan çəkinmədilər. Xüsusilə də, Bədir və Uhud döyüşlərində liderlərini itirdiklərinə görə vəfat etmişlərini düşündükcə sanki daha da azğınlaşırdılar və intiqam hissi ilə alışıb yanırdılar.

Belə ki, müsəlmanlara aid olan hər şeyə qarşı qəzəblənirdilər və onlara aid olan hər şeyi yıxıb-dağıtmağa, yandırıb yox etməyə çalışırdılar.

Bir gün səhər tezdən Adal ve Karə qəbilələrindən müsəlman olduqlarını iddia edən 6-7 nəfərlik bir heyət Mədinəyə gəldi.

İslamın və müsəlmanların bir nömrəli düşməni olan bu qəbilələrin birdən-birə İslama yönəlmələri müsəlmanları çox sevindirdi.

Şirk bataqlığından xilas olaraq iman və İslam gülüstanına qovuşan hər kəs müsəlmanları sevindirirdi...

Gələn heyət Peyəmbərimizin (s.ə.s) hüzuruna çıxmaq üçün Məscidi-Nəbiyə (Peyğəmbərin məscidinə) doğru getməyə başladı. Peyğəmbərimizin yanında tanınmış sə-

habələr var idi. Amma buna baxmayaraq, heyəti görən səhabələr məscidə doğru getməyə başladı.

Çünki, səhabələr Peyğəmbərimizi (s.ə.s) nəinki yad adamlardan, hətta onların gözlərindən belə qoruyurdular.

Səhabənin Peyğəmbərimizə (s.ə.s) bu dərəcədə düşkün olduğunu görən heyət üzvləri düşündülər ki, üstlərinə düşən missiyanı yerinə yetirə bilsələr, çox böyük bir işin öhdəsindən gəlmiş olacaqlar. Onlar artıq bu ümidlə yaşayırdılar.

- Ya Rəsulallah! İslamiyyət qəbilələrimiz içində də yayılmağa başladı. Əshabının bəzilərini bizimlə birlikdə göndər, onlar bizə İslam dinini yaxşı-yaxşı başa salsınlar.

- Bizim qəbilələrimiz İslamı qəbul etdi. Amma İslam mürşidlərinə ehtiyacımız var. Quran öyrətmək və dini biliklərə yiyələnmək üçün yetişmiş insanlardan bir neçəsini göndər.

- Ya Rəsulallah! Bizə Quranı öyrədəcək, İslam dinini başa salacaq adamlar ver. Çünki qəbiləmizdə İslam dinini qəbul etmək arzusu var.

- Ey Allahın Rəsulu! Qəbiləmizdə İslamiyyət yayılır. Xeyrə doğru bir dönüş var. Bizimlə bərabər bir neçə müəllim göndər, bizə İslamiyyəti öyrətsinlər. Quran oxusunlar... Biz də əmr və yasaqlardan xəbərdar olaq...

Aşağı-yuxarı, hər biri eyni şeyi təkrar edirdi. Ümumiyyətlə, heyət səhabələrdən bir qismini götürüb aparmaq istəyirdi.

Peyğəmbərimiz (s.ə.s) əshabını məsciddə toplayaraq məsləhətə çəkildi. Bu vəziyyəti dəyərləndirdilər, təhlil etdilər.

Peyğəmbərimiz (s.ə.s) bir az həyəcanlı görünürdü. Çünki bu istəkdən, bu tələbdən şübhələnirdi. Səhabələri aparmaq istəyən qəbilələrin Hicazın sahil tərəfində və Məkkəyə yaxın olduqlarını bilirdi. Məkkə xalqının və ya onlar kimi düşünənlərin onun sevimli səhabələrinə hər hansı bir zərər verə biləcəklərindən narahat idi.

Amma etdikləri məşvərətin nəticəsində bir qrup səhabənin heyətlə birlikdə göndərilməsinə qərar verildi.

Bəs kimləri göndərəcəklər?

Bunlar orada nə edəcəklər?

İşləri və vəzifələri nələrdir və nə qədərdir?

Beləliklə də, əvvəlcədən olunan məşvərətin nəticəsində seçilmiş səhabələrdən bəzilərinin, hər biri ayrı-ayrı ulduz olan şəxslərin barəsində qərar verildi.

Hz. Asim b. Sabit (r.a),

Hz. Hübeyb b. Adiy (r.a),

Hz. Zeyd b. Desinə (r.a),

Hz. Mərsəd b. Əbi Mərsəd (r.a),

Hz. Xalid b. Əbi Bukeyr (r.a),

Hz. Abdullah b. Tariq (r.a),

Hz. Müəttib b. Übeyd (r.a) və bunlardan başqa (*heç bir qaynaqda adları verilməyən* ) üç nəfər ilə cəmi **10 nəfərdən ibarət qafilə**.

Bu seçilmiş səhabələrin vəzifəsi getdikləri yerdə İslamı təbliğ etmək idi.

Əvvəlcə Quranı və əhkamını öyrədəcəkdilər, sonra da sünnətin həyata əks edən bütün incəliklərini təfsilatı ilə başa salmalıydılar.

Bununla birgə, Məkkə müşriklərinin Mədinəyə qarşı hərbi hazırlıq cəhdlərinin olub-olmadığını da araşdırmalıydılar və aldıqları xəbərləri hər gün Mədinəyə çatdırmalıydılar. Yəni, düşmənə qarşı əks təbliğat fəaliyyətini də yerinə yetirməliydilər.

Peyğəmbərimiz (s.ə.s) səhabə heyətinin başçısı olaraq Hz. Asimi, onun köməkçisi olaraq da Hz. Hübeybi elan etdi. Başqa bir rəvayətə görə isə, heyətin başçısı kimi Hz. Mərsəd əbi Mərsəd, köməkçi kimi də Hz. Asim və ya Hz. Hübeyb elan edilmişdi. (*Biz burada Hz. Asimin (r.a) başçı olaraq elan edilməsi rəvayətini əsas götürdük*)

Bildiyimiz kimi, Peyğəmbərimizə (s.ə.s) müraciət edərək ondan öz qəbilələrinə İslam qayda-qanunlarının öyrədilməsi üçün irşad heyəti (alim, müəllim) istəyənlərə Peyğəmbərimiz (s.ə.s) səhabələrindən bəzən bir, bəzən də vəziyyətə görə birdən cox adamını seçib göndərərdi.

Bunun ən məhşur misalı budur ki, **İkinci Əqabə Beyətində** Yəsribililərin (Mədinəlilərin) belə bir istəkləri olmuşdu. Bu istəyi, ehtiyacı nəzərə alan Peyğəmbərimiz (s.ə.s) Mədinəyə müəllim və təbliğatçı olaraq **Hz. Musab b.Ümeyri** (r.a) göndərmişdi.

Nəhayət, yola düşdülər…

Gələn heyət 6-7 nəfər, gedən heyət 10 nəfər olduğuna görə,17 nəfərlik karvan hicrətin dördüncü ili, Səfər

ayında Mədineyi-Münəvvərədən (nurlu Mədinədən) yola düşdü.

Heyəti Peyğəmbərimiz (s.ə.s) şəxsən yola salmışdı.

Həmin vaxt orada iştirak edən səhabələr də hər biri bir-birindən dəyərli dostlarını yola salmağa gəlmişdilər.

## MÜRŞİDLƏR VƏ MÜCAHİDLƏR

***Hz. Asim b. Sabit*** (r.a)

Ənsar...

Bədir və Uhud qazilərindən biri...

Səhabələrin ən məşhurlarından və ən hörmətlilərindən idi. Alim və ədib bir şəxsiyyət idi. Hicrətdən əvvəl iman etmişdi. Ənsar, yəni mədinəli idi. Hər bir yeni nazil olmuş ayəti-kərimənı, hər bir hədisi-şərifi elə oradaca əzbərləyərdi və bununla da kifayətlənməyərək, həyatına da tətbiq edərdi. Bütün həyatı İslamın yaşanması, inkişafı uğrunda, təbliğlərdə və cihadlarda keçdi. İslamı yaşamaq mövzusunda elə həssas idi ki, bütün həyatı boyu bircə nəfər müşriklə belə ünsiyyət etməməyə çalışırdı.

"*Ya Rəbbim! Mənə müşrik əlinin toxunmasına imkan vermə!*" -deyərək, həmişə dua edərdi.

Hicrətdən sonra Peyğəmbərimiz (s.ə.s) onu Hz. Abdullah b. Cahş ilə ixvan, yəni din qardaşı etmişdi. Uhud döyüşünün ən kritik anında belə Peyğəmbərimizin (s.ə.s) yanından heç ayrılmayan igidlərdən biri idi. Bununla birlikdə də Peyğəmbərimizin (s.ə.s) oxçusu idi.

Hz. Asimin bütün ailəsi müsəlman olmuşdu. O, ailəsi və qohumları ilə birlikdə qonşularına da ən gözəl, ən yüksək şəkildə təbliğ etmiş, nümunə olmuşdu.

Peyğəmbərimiz (s.ə.s) Bədir döyüşündən əvvəl döyüşün necə baş verəcəyinə, taktikasına dair praktiki məlumatlarla döyüşçüləri məlumatlandırırdı. Bu məqsədlə də, lazım gəldikcə hər birinə müxtəlif suallar verirdi və mövzunu yaxşı mənimsəmələri üçün məlumatlarını möhkəmləndirirdi.

Bu söhbət əsnasında əshabından necə davranacaqlarını, hərbdə hansı üsuldan istifadə edəcəklərini soruşdu. Hz. Asim icazə istəyərək ayağa qalxdı. Yayını və oxunu əlinə götürərək hamının görə biləcəyi bir tərzdə başa salmağa başladı.

- Ya Rəsulallah! Düşmənlər iki yüz zira (100 m) və ya daha yaxına yaxınlaşdıqları zaman yay və oxlardan istifadə edəcəyik. Onlar bizə, biz də onlara daşla vura biləcəyimiz qədər yaxınlaşdıqda, daşlarla mübarizə aparacağıq. Mizraqlarımız bir-birimizə toxunacaq məsafəyə çatdıqda da, qırılıb parçalanana qədər mizraqla mücadilə edərik. Ən axırda da qılınclarımızla vuruşmağa başlayarıq.Ta ki, Uca Allah bizə ya zəfər, ya da şəhidlik nəsib edənə qədər!..

Peyğəmbərimiz (s.ə.s) Hz. Asimin bu çıxışını çox bəyəndi və belə buyurdu:

- **“Müharibənin zərurəti budur! Bu tərzdə döyüşmək lazımdır. Döyüşən, mübarizə aparan hər kəs Asimin döyüşdüyü kimi döyüşsün!”**

Peyğəmbərimiz (s.ə.s) Hz. Asimin taktikasını həm tərifləmişdi, həm də yaxşıca mənimsəmişdi. Elə Bədir dö-

yüşü də bu şəkildə baş vermişdi və düşmən məğlubiyyətə uğramışdı.

Hz. Asim Bədir döyüşündə fövqəladə bir şücaət göstərərək, müşrik liderlərindən Uqbə b. Muaytı cəhənnəmə vasil etmişdi. Uqbə adlı həmin vəhşi Məkkədə Peyğəmbərimizi (s.ə.s) boğmağa çalışaraq onun həyatını bitirmək istəyən müşrik liderlərindən biri idi.

Hz. Asim Uhud döyüşündə də fövqəladə cəsarət nümayiş etdirmişdi. Xüsusilə də döyüş meydanı qarışarkən və bütün müşriklər Peyğəmbərimizə (s.ə.s) hücum çəkən zaman onun yanından heç bir yerə ayrılmayanlardan biri də Hz. Asim idi. Düşmənlər onun üzərinə ox yağdırırdılar və onu geriyə çəkilmək üçün məcbur etməyə çalışırdılar. Peyğəmbərimizin (s.ə.s) yanından bir an belə ayrılmayan və Onunla birlikdə hücumlara sinə gərən, ölsə də Peyğəmbərimizdən (s.ə.s) ayrılmayacağına beyət edən bəxtiyarlardan idi. Bu həngamə, bu ölüm-dirim mübarizəsi əsnasında qatı müşrik liderlərindən Müsafi və Harisi məhz, Hz. Asimin peşəkarlıqla atdığı oxlarla öldürülmüşdü.

Peyğəmbərimizə (s.ə.s) elə inanmışdı, elə bağlanmışdı ki, Ona düşmənçilik edənə ölümü bahasına da olsa, aman vermirdi. Onun uğrunda hər bir düşməni yerə sərirdi.

O, hər yerdə və hər sahədə İslamın qabaqcıl təbliğçilərindən və mücahidlərindən idi.

Mədinənin ilk müsəlmanlarından olan Hz. Asimin ox atmağı çox sərrast olduğuna görə, «*Rəsulullahın oxçusu*» kimi şöhrət tapmışdı.

***Hz. Hübeyb b. Adiy*** (r.a)

Ənsar...

Hicrətdən əvvəl İslamı qəbul etmişdi. Ənsarın seçilmiş cəngavərlərindən biri idi. Cəsarətli, ağıllı, iti zəkalı və dəliqanlı bir şəxsiyyəti vardı. Qurani-Kərimə qarşı xüsusi marağı var idi, belə ki, hansı ayə harada, necə, nə cür nazil oldu və s. məsələlərə xüsusilə diqqət yetirərdi. Həmçinin, Peyğəmbərimiz (s.ə.s) həmin ayəni necə təfsir etdi, hansı səhabə bunu necə izah etdi və həyata keçirdi, bütün bunları ən yaxşı bilənlərdən biri idi.

Özünü ibadətə həsr etmiş abid və zahid bir şəxs idi. Çox güclü bir imana sahib idi. Alicənab, təvazökar və əxlaq abidəsi bir şəxs idi. Öyünməkdən heç xoşu gəlməzdi.

Bədir döyüşündə əyilmədən, geriyə baxmadan döyüşən, Allah və Rəsulu uğrunda ölümün üzərinə sevinclə atılan, Peyğəmbərimizə (s.ə.s) düşmənçilik və əziyyət edənlərin üzərinə də fırtına kimi əsən, coşan bu igid ənsardan idi...

Məkkədə Peyğəmbərimizə (s.ə.s) zülm edənlərdən və azğın müşriklərdən biri olan Harisi Bədir döyüşündə öldürərək cəhənnəmə vasil etmişdi. Çunki o, Peyğəmbərimizi (s.ə.s) çox sevirdi. Ona yönələn bütün təhlükələrin qarşısında sipər olurdu. Onun yanında olsa da, Onun həsrətini çəkirdi...

İndi də Onun əmri ilə səfərə çıxmışdı...

**Hz. Zeyd b. Desinə** (r.a)

Ənsar...

Ənsarın liderlərindən olan Hz. Zeyd fədakar, igid və Quran hafizi bir səhabə idi.

Hicrətdən əvvəl müsəlman olmuşdu. Əshabi-suffada Peyğəmbərimizin (s.ə.s) mədrəsəsində yetişən qabaqcıl tələbələrdən biri idi...

Hicrət əsnasında Peyğəmbərimiz (s.ə.s) onu Hz. Xalid b. Əbi Bukeyr ilə qardaş etmişdi.

Quran hökmlərini bütün incəliyi ilə öyrənib həyata keçirmək onun ən böyuk məziyyəti idi. Həmişə Quran oxuyardu. Züransız bir saniyəsi belə keçməzdi. Oxuyar, tədbiq edər və mütləq başqalarına da təbliğ edərdi.

Hər halında və hərəkətində Peyğəmbərimizi (s.ə.s) özü üçün nümunə, əsas qəbul edərdi. Peyğəmbərimiz (s.ə.s) nə edərdisə, onu etməyə çalışar, nədən çəkinərdisə, ondan sürətlə uzaqlaşardı. Çünki Onu çox sevirdi. Onunla Onu yaşayırdı...

İndi isə, Onun əmri ilə səfərə çıxmışdı.

❁

**Hz. Mərsəd b. Əbi Mərsəd** (r.a)

Mühacir...

İslam günəşinin doğulduğu ilk günlərdə müsəlman olaraq İslam nuru ilə nurlanan bəxtiyar səhabələrdən biri idi. Bəzi şəxsi problemləri olduğu üçün digər səhabələrlə birlikdə deyil, daha sonra, yəni Bədir döyüşündən əvvəl Mədinəyə hicrət etdi. Peyğəmbərimiz (s.ə.s) onu Hz. Evs b. Samit ilə ixvan (din qardaşı) etdi.

Həzrət Həmzənin müttəfiqi idi. Bədirdə İslam ordusunun üç atlısından biri idi. Müsəlman qardaşlarına qarşı son dərəcə şəfqətli, müşriklərə qarşı da olduqca hiddətli, şiddətli bir mömin, qüvvətli bir cəngavər idi.

Quran hökmlərini ən yaxşı bilənlərdən biri idi. İslam prinsiplərini çox yaxşı bilirdi və öyrəndiklərini mütləq həyatında tədbiq edirdi. Səbirli, cəsur və əzmli idi.

Hz. Mərsəd güclü-qüvvətli, cəsur və əzmli idi. Hz. Peyğəmbər (s.ə.s) onu asan olmayan, heç kəsin bacarmayacağı, bəlkə də cəsarət belə edə bilməyəcəyi bir işə cavabdeh etmişdi: Məkkədə əsir və həbs olunan müsəlmanları Mədinəyə qaçırmaq...

O, bu vəzifəsini uğurla həyata keçirmişdi. Məkkəyə gecə girmişdi. Əsir və həbsdə olan müsəlman qardaşlarını bir-bir Məkkədən çıxararaq gizli bir yerdə saxlayır, sonra da geri dönərək digərlərini aparırdı.

Məhz belə bir vaxtda, həmin gizli əməliyyat davam edərkən, Məkkənin məşhur gözəllərindən biri Hz. Mərsədi tanıdı. Onun gücünü, qüvvətini və igidliyini çox görmüş və eşitmişdi. Gecəni birlikdə keçirməyi təklif etdi. Amma Hz. Mərsəd bu təklifə əhəmiyyət vermədi, özünü heç o yerlərə qoymadı. Ancaq məsələ burasındadır ki, bu qadın indiyə qədər qarşısına çıxan hər kəsi ovsunlamışdı. Hz. Mərsəd isə İslamı tamamilə dərk etdiyinə görə hər bir hərəkətini Allahın və Rəsulunun rizası üçün edirdi. Bu xain qadın da istədiyini əldə etmədiyinə görə səsi batana qədər qışqırdı.

*«Ey Məkkənin igidləri! Əsirlərimizi qaçırdırlar. Bu adam düz Mədinədən gəlib əsirlərimizi qaçırdır. Haradasınız? Tez gəlin, tez bura gəlin!»*

Qadının fəryadını eşidən bütün məkkəlilər əllərinə qılıncını, mizrağını, ox və yayını götürərək bayıra çıxdı. Belə ki, bütün Məkkə ayağa qalxmışdı. Hz. Mərsəd isə onlardan daha cəld tərpənərək, Xandemə dağının ətəklərində bir yerdə gizləndi. Müşriklər hər tərəfi axtarırdılar və dəlicəsinə qışqırırdılar. Axtardıqlarını tapmayacaqlarını görüb, «*Mədinəyə qaçıb*!» -deyərək dağılışdılar.

Hz. Mərsəd isə bir az da diqqətlə hərəkət edərək, düşmənlərin arasında qalmış son adamı da qaçırdı. Həm də, bu adam çox kök idi. İki nəfərdən daha ağır idi.

Bütün bu çətinlikləri dəf edərək Peyğəmbərimizin (s.ə.s) verdiyi vəzifəni müvəffəqiyyətlə tamamladı və bütün əsirləri Mədinəyə gətirdi.

İndi də İslamı təbliğ etmək üçün dostları ilə birlikdə yenidən yola düşdü.

***Hz. Xalid b. Əbi Bukeyr*** (r.a)

Mühacir...

İnancı uğrunda, əqidəsi uğrunda malik olduğu hər şeyi, bütün əmlakını Məkkədə tərk etdi. Mədinəyə hicrət edən çox dəyərli mühacirlərdən biri idi...

Hicrətdən sonra Hz. Zeyd b. Desinə ilə ixvan (qardaş) olmuşdu.

Bu gənc igid, gözünün gördüyü heç bir şeydən qorxmayan cəngavərlərdən biri idi. Quran üzərində xüsusi əmək sərf edərdi. Çox Quran oxuyardı və oxuduqlarını həyata keçirməyə çalışardı. Həm mücahid (döyüşçü), həm də təbliğçi (müəllim) idi.

***Hz. Müəttib b. Übeyd*** (r.a) və ***Hz. Abdullah b. Tariq*** (r.a)

Müəttib mühacir…

Abdullah ənsar…

Bu iki cəngavər Səhabə bir-biriylə qardaş idilər. Abdullah Mədinədə, Müəttib isə Məkkədə böyümüşdülər. Həmçinin, Abdullah Mədinədə, Müəttib də Məkkədə yaşayarkən İslam ilə şərəflənmişdilər. Qardaşlıqları da belə olmuşdu: Anası Müəttib ilə birlikdə Mədinəyə hicrət etdi. Bir müddətdən sonra da Abdullahın atası Tariq ilə evləndi və beləliklə də Abdullah ilə Müəttib qardaş oldular. İllərlə Mədinədə birlikdə qaldılar, hər bir şeyi birlikdə öyrəndilər, yaşadılar. Bədir və Uhud döyüşlərinə də birlikdə getmişdilər.

O qədər həvəslə və o qədər gözəl Quran oxuyurdular ki, dinləyənləri göz yaşına qərq edirdilər. Qurani-Kərimi elə sevirdilər ki, Quransız yemək yeməzdilər, Quransız su içməzdilər, Quran oxuyaraq yatardılar, Quran oxuyaraq oyanardılar.

İndi də Peyğəmbərimizin (s.ə.s) verdiyi yeni tapşırığı yerinə yetirməyə can atırdılar. İslamı təbliğ etmək, Qurani -Kərimin hökmlərini öyrətmək üçün yola çıxmışdılar.

Gedirdilər…

Yenə də İslamı təbliğ etmək üçün yola düşmüşdülər.

Təbliğ heyətinin üzvlərinin hamısı təmiz ruhlu, güclü şəxsiyyətli, sağlam imanlı və şir ürəkli idilər.

Yola düşməzdən əvvəl hər biri ailələri ilə son dəfə görüşmüşdü, halallaşmışdı.

Canlarını O cana fəda etməyə hazır olduqlarını, bəlkə də, bir daha geriyə qayıtmayacaqların bildirdilər. Əgər belə bir şey olsa, təmkinli davranmalarını və üsyan etməmələrini ailələrinə təlqin etdilər. Dua ve xeyir diləmələrini istədilər.

Və yolçular yollarına rəvan oldular…

❁

Qeyri-adiliyi sonradan məlum olacaq bu səfər əvvəlcə çox gözəl başlamışdı. Şirin-şirin söhbətlər edirdilər. İrşad heyəti hələ yolda ikən təbliğata başlamışdı. Heç bir dəqiqəni boşa keçirməməyə çalışırdılar.

Onları dəvət edənlər də bütün yol boyu onlara xidmət və hörmət göstərirdilər.

Sahil yolu ilə güneyə doğru, Hüzeyl suyunun başlanğıcına qədər getdilər. Gecələri irəliləyərək, gündüzləri isə gizlənərək, hər cür tədbiri və ehtiyatı nəzərə alırdılar. Beləliklə də, bütün yol boyu gecələr mümkün qədər çox yol gedirdilər və səhəri yorğun-arğın qarşılayırdılar.

Artıq, yaxınlaşmışdılar. Buraya **Rəci** deyilirdi.

Bura Məkkə ilə Üsfan arasında, tənha bir su quyusunun olduğu bir yerdir. Bu su quyusu, Hüzeyl qəbiləsinə aid olduğu üçün, ona **Hüzeyl suyu** da deyirdilər.

Səhər namazlarını qılan kimi olduqları yerdəcə uzanıb qalmışdılar. Neçə gündən bəri fasilə vermədən yol qət etdikləri üçün, heç taqətləri qalmamışdı. Elə olduqları yerdəcə qıvrılıb yatmışdılar, dərin yuxuya getmişdilər.

## TƏLƏ

Artıq, ***təbliğ heyətini*** götürüb aparan qrupun arasında gizlincə, xəlvətcə pıçıldaşmalar, qaş-göz işarələri, qəribə hərəkətlər görünməyə başladı.

Əvvəlcə, bir-birilərinə müxtəlif işarələr etdilər, sonra da aralarından biri səsizcə ayağa qalxdı və təzəcə ağarmaqda olan gecənin ala-qaranlığında xəlvət addımlarla geriyə doğru getməyə başladı. Oradan bir az uzaqlaşdı, sonra da bacardığı qədər sürətlə qaçaraq balaca təpəciyi aşdı və Lihyan oğulları qəbiləsinə gəlib çatdı. Həm gəldiyi istiqamətə doğru qorxuyla baxırdı, həm də təngnəfəs bir halda, tövşüyə-tövşüyə danışmağa çalışırdı. Lihyan oğullarının rəisi də diqqətli bir şəkildə onu dinləyirdi.

- Gəldik. Çatmışıq artıq!

- Haralardasınız, hara çatmısınız?

- Rəci quyusu tərəfdə…

- Neçə nəfər gətirə bildiniz?

- 10 nəfər

- 10 nəfər?

- Bəli, azdır?

- Necə yəni az? Bu qədər gözləmirdik! 10 nəfər çox gözəl, çox əla!.. Kimləri gətirdiniz? Tanıdıqlarımızdan var? Pul düşər?

Heyətdən ayrılıb gələn adam təbliğ heyətini bir-bir saydı.

- Demək, Asim də var onların arasında!

- Bəli, Asim b. Sabit də var.

- Başına 100 dəvəlik yüksək bir dəyər biçilən həmin adam!

- 100 dəvəlik başın sahibi indi Rəci quyusunun kənarındadır!

- 100 dəvə hə! Bu çox böyük bir sərvətdir, doğrusu...

- Hübeyb də az etməz!

- Bəli, o da cox pul edər!

- Bəs Zeyd?

- O da elə!

- Bəs Mərsəd?

- O da çox pul edər!

- Əslində, hamısı çox pul edər!

- Bəli, hamısı!

- Biz bir işi etmək istəyəndə ancaq belə edirik!

- Doğrusu, çox böyük iş görmüsünüz!

- Biz də bizə düşəcək məbləği istəyirik, təbii...

- Əlbəttə, istəyin nə qədər istəyirsiniz.

- Bəs nə vaxt verəcəksiniz bizim hissəmizi?

- Bu qədər tələsməyin, verəcəyik, – verəcəyik... Hələ bir onları ələ keçirək, sonrası asandır. Sən indi geriyə qayıt. Oradakılar heç bir şeydən şübhələnməsinlər. Yoxsa, işimiz çətinləşər.

- Necə yəni, böyük bir Lihyan oğulları qəbiləsi 10 nəfərdən qorxur?

- Biz heç kimdən qorxmuruq! Nə qədər sərrast atıcı olduğumuzu, necə mahir döyüşçü olduğumuzu bilməyən var məgər?

- Doğrudan?

- Sən bu işləri bilməzsən. İndi tez get, şübhələnməsinlər.

Adam gəldiyi kimi də geriyə qayıtdı. Rəis arxasınca pis-pis danışdı, söyüş söydü.

- İndidən pay istəyir. Hələ bir onların işini bitirək, sonra da!...

Hz. Asim fısıldaşmaları, pıçıltıları eşidib yuxudan oyandı.

Hiss etdirməməyə çalışaraq adamları izləməyə başladı. Yol boyu onlara hörmət edən, gülərüz görünən adamlar heç bunlar deyildi sanki.

Sifətlərində şeytani bir parıltı var idi və bir-biri ilə hiyləgərcəsinə danışırdılar. Yanında yatmaqda olan Hübeyb həzrətlərini yuxudan oyatdı. Bir yandan da barmağı ilə

«sakit ol» işarəsi verərək gözlənilən təhlükədən onu xəbərdar etdi.

- Dostlarımızı oyandır, qardaşım.

- Xeyir ola?

- Deyəsən, tələyə düşmək üzrəyik!

- Tələ?

Hübeyb, yanındakını əli ilə, digərini də ayağı ilə yuxudan oyandırdı. Onlara da «sakit olun» işarəsi edərək, digərlərini oyandırmağı söylədi. Beləliklə, hamısı oyanmışdı və gözaltı onlara baxırdılar. Biri-biriləri ilə sakitcə məsləhətləşdilər və ortaq bir qərar verdilər.

- Qılınclarınıza sarılın, -dedi Hz. Asim.

- Qılınclarımıza sarılaq, -dedi Hz. Hübeyb.

- Dərhal, -dedi Hz. Zeyd.

- Dərhal, -dedilər digərləri.

- Mən işarə edən kimi, hamımız bu təpəyə çıxarıq.

- Oldu, -dedilər.

Elə bu vaxt, bir toz buludunun onlara tərəf yaxınlaşdığını gördülər. Bütün diqqətlərini həmin istiqamətə cəmləyəndə gördülər ki, düşmənlər sürətlə onlara doğru hücuma keçib. Alçaq bir xəyanətlə qarşı-qarşıya olduqlarını başa düşdülər.

- Dağa, təpəyə, haydı! Allahu Əkbər! -deyə hayqırıb hücuma keçdi Hz. Asim.

- Allahu Əkbər! -deyə hücuma keçdi Hz. Hübeyb.

- Allahu Əkbər! -deyə nərə çəkdi Hz. Zeyd.

- Allahu Əkbər! -deyə digərləri də hayqırdı.

Elə cəld hərəkət etmişdilər ki, yanlarındakı xainlər qılınclarını belə qaldıra bilməmişdilər. Təpəyə çıxıb, qayaları özlərinə sipər etdilər. Qılınclarını qınlarına salıb, oxlarını əllərinə aldılar.

***İslam təbliğçiləri heyəti***nin belə cəld şəkildə sipərə çəkilərək ***İslam fədailəri birliyi***ni təşkil etmələrini düşmənlər heyrətlə seyr edirdi və bu hadisə qarşısında çaşıb qalmışdılar.

*«Biz müsəlman olduq, bizə İslamı öyrədən müəllimlər göndər!»* -deyə, ta Mədinəyə qədər gəlib, xahiş edən mürtədlər qonaqlarını Lihyan oğullarına, onların cəlladlarına təslim etmək üçün, onların yanında qalmışdılar. Elədir, ***alçaq hər yerdə alçaqdır***! Nə qədər dürüst görünürsə-görünsün.

- Təslim olun! Dağların sizə heç bir faydası olmaz!

- Təslim olun!

- deyə qışqıran Lihyan oğulları rəisinə daha da gur səslə cavab verdilər. Elə ki, dağ-daş yerindən oynadı:

- Əsla! Sizin kimi müşriklərə təslim olmarıq!

- Təslim olun! Bizi məcbur etməyin ki, sizi öldürək!

- Xeyr! Heç vaxt təslim olmarıq!

- Ölərik, amma təslim olmarıq!

- Uşaq aldadırsınız?

- Sizi öldürmək istəmirik.

- Sizə inanmırıq.

- Bizim sizinlə heç bir işimiz yoxdur!

- Bəs niyə mürtədlik etdiniz?

- Bizə sizin ölünüz deyil, diriniz lazımdır.

- Niyə?

- Vallah sizi öldurmək istəmirik. Məqsədimiz sizin qarşılığınızda bir şey qopartmaqdır!

- Necə yəni?

- Sizi Qureyşə satıb, sizin qarşılığınızda onlardan pul alınacaq!

- Bəs müsəlman olmuşdunuz siz?

- Sizi buraya gətirmək üçün fikirləşdiyimiz bir yalan idi!

- Bizi bura gətirmək üçün bu qədər yolu gəzib ta Mədinəyə qədər gələn sizin kimi saxtakarlara, yalançılara necə inanaq indi?

- Doğru deyirik. Vallah sizi öldürməyəcəyik. Təslim olun!

- Sizə təslim olmarıq.

- Onda sizi öldürmək məcburiyyətində qalırıq?

- Bunu belə asan bacarmazsınız.

- Görərsiniz!

- Görəcəksiniz!

Düşmən çevrəni daraltmağa çalışırdı. Amma hər an tərəflərin hansısa birinin oxu atıla bilərdi. Belə məlum oldu ki, doğrudan da düşmən onların ölülərini deyil, dirilərini istəyir. Bunun üçün də dərhal silahlarına sarılmamışdılar.

- Sizə son dəfə deyirik, təslim olun!

- Biz də son dəfə deyirik, əsla!

- Əgər bizimlə savaşmadan, adam kimi təslim olsanız, sizə heç bir şey etməyəcəyik. Sadəcə aparıb Qureyşə satacağıq!

- Nə danışırsız? Yəni siz bu qədər məsumsunuz? Heç nə etməyəcəksiniz, sadəcə Qureyşə satacaqsınız? Yaxşı bəs Qureyş nə edəcək bizə?

- !
- Niyə cavab vermirsiniz?

- Dedik axı, biz sizə heç bir şey etməyəcəyik!

- Elə isə, bizim üçün nə fərqi var? Siz aparıb bizi Qureyşə satanda onlar bizə nə edəcəklər? Orada öldük, yaxud da burada öldük, bizim üçün eynidir. Son sözümüzü də söylədik. Sizin kimi saxtakarlara inanacaq deyilik artıq...

- Ancaq, siz belə etsəniz, hamınızı öldürərik.

- Allahın dediyi olacaq.

- Siz korsunuz? Biz 200 nəfərik, siz isə sadəcə 10 nəfərsiniz. Üstəlik, bizimkilərdən 100 nəfəri sərrast oxçulardan,100 nəfəri də çox yaxşı döyüşçülərdən ibarətdir. Axı, nəyə güvənirsiniz, nəyə arxayınsınız siz?

- Allahımıza təbii ki! Allahımıza... Biz sadəcə Ona güvənirik, Ona arxalanırıq!

Peyğəmbərimizin (s.ə.s) seçilmiş səhabələrindən olan bu 10 nəfər mücahid artıq döyüşə hazır idi. Düşmənə təslim olmağı isə heç biri düşünmürdü. İslamı təbliğ edərkən hiss etdikləri, nümayiş etdirdikləri həssaslığı eyni ilə burada, cəng meydanında, ölüm-dirim mübarizəsində də hiss edirdilər və nümayiş etdirirdilər. Başlarına gələn bu hadisə qarşısında çox ciddi və qürurlu idilər. Qarşılarına çıxan düşmən nəinki 200, bundan qat-qat artıq olsaydı, yenə də heç birinin müşrik sözündən və ya hücumundan qorxusu olmazdı. Heç birində ölüm qorxusu da yox idi. Onlar yola çıxarkən ölüm qorxusunu arxada tərk etmişdilər.

- Hey, sizlər təslim olursunuz? Son dəfə soruşuruq...

- Sizin bu son dəfəniz bitməyəcək? Yox dedik də! Biz müşriklərə təslim olmarıq!

- Sizə sonuncu dəfə fürsət veririk, təslim olun!

- Biz müşriklərin sözlərinə heç vaxt güvənmərik. Biz sizin kimi alçaq müşriklərin himayəsinə sığınmaqdansa, şərəflə ölməyi seçirik!

- Dedik axı, məqsədimiz sizi öldürmək deyil. Ancaq sizə qarşılıq olaraq Məkkəlilərdən bir şey qopartmaq istəyirik. Təslim olun, haydı!

- Heç bir müsəlman hər hansı bir müşrikin sözünə aldanıb təslim olmaz!

- Bəsdir! Yaman çox danışdırdıq sizi! Gəbərdin hamısını! Leşlərini də satarsınız bunların!

- Haydı gəlin! Allahu Əkbər!

- Allahu Əkbər!

- Allahu Əkbər!

Mücahidlər dağı aşıb hücuma keçən düşmənlərə ox atmağa başladı. Düşmən oxçuları da müsəlmanların üzərinə yağış kimi, dolu kimi ox yağdırırdılar.

Amansız, ədalətsiz, vicdansızcasına bir döyüş başladı.

Bir tərəfdə sadəcə 10 adam, digər tərəfdə isə 200 adam!... Üstəlik, hamısı da seçilmiş döyüşçülər.

İslam dəvətçiləri son nəticənin ölum olacağı bir döyüşə girdiklərini bilirdilər. Şəhadət körpüsündən keçərək Haqqa qovuşmadan əvvəl hər biri bir neçə düşməni cəhənnəmə göndərməyə çalışırdı və bunun üçün bütün güclərini sərf edirdilər.

Müsəlmanlar bir yandan ox atır, bir yandan da elə hayqırırdılar ki, düşmənlər onların bu şücaətinə məəttəl qalırdı.

- Mən müşriklərin himayəsini heç bir zaman qəbul etməməyə əminəm!

- Vallahi, mən kafirlərin himayələrinə və sözlərinə inanaraq buradan enmərəm!

- Kafirlərə əsla təslim olmaram!

- Vallahi, biz heç bir zaman müşriklərin nə sözlərini, nə də əqidələrini qəbul etmərik!

Hər biri ayrı-ayrı və bənzər ifadələrlə ortaq düşüncələrini bildirərək nərə çəkirdilər və ox atırdılar. Həmçinin, Hz. Asim bunlara əlavə olaraq belə hayqırdı:

*Ölum haqq, həyat boş və müvəqqətidir,*
*Qədərdə olanların hamısı başa gələcəkdir!*
*İnsanlar gec-tez Allaha dönəcəklər.*
*Əgər mən sizinlə döyüşməsəm,*
*Anam ölümümü görəcəkdir!*

Kimisində 7, kimisində 8, kimisində də ancaq 9 ox vardı. Yəni, heç birinin 10 oxu belə yox idi. Buna görə də oxlardan çox diqqətlə istifadə edirdilər. Hər bir oxu mütləq hədəfə vururdular. Kimin oxları bitsə, qılıncına sarılırdı və döyüşməyə davam edirdi. Hər ox bir müşriki yerə sərmişdi. Oxları bitdikdə mizraqlarından istifadə edirdilər, amma o da parçalanmışdı, bitmişdi. Ona görə də növbə qılınc döyüşünə çatdı. Amma qılıncla savaşmaq üçün sipərlərdən çıxmalı və üz-üzə vuruşmalı idilər. Yenə də hər biri «***Bisimillah! Allahu Əkbər***!» deyə hayqıraraq sipərlərdən çıxmışdılar. Düşmənin sayına və gücünə baxmayaraq, aşağı doğru elə bir hücum çəkdilər ki, düşmənlər bir anlığa çaşıb qaldılar və nə edəcəklərini bilmədilər. Sonra da çaşqınlığı bir kənara qoyub kimisi mizraqla, kimisi də qılıncla çullandılar təbliğçilərin üstünə...

- Ey Rəbbimiz! Peyğəmbərimizi (s.ə.s) vəziyyətimizdən xəbərdar et! Onun yolunda bu can fəda olsun!

- Bu can, O cana fədadır bu gün!

- Bu gün Haqqa qovuşmaq günüdür!

- Allahu Əkbər!...

Belə hayqıraraq döyüşürdülər və bir-bir yerə yıxılırdılar. Allahın, peyğəmbərin, dinin uğrunda tərəddüd etmədən canlarını fəda edirdilər və şəhadət mərtəbəsinə çatırdılar.

- Allahım! Mən günün başlanğıcında sənin dinini qorumağa çalışdım. Sən də günün sonunda mənim bədənimi qoru! Cəsədimə müşriklərin toxunmasına icazə vermə ya Rəbb! Düşmənlər cəsədimə belə toxunmasınlar ey Rəbbim!.. Müşrikləri cəsədimə toxundurma...

Asim b. Sabit  həzrətlərindən eşidilən son sözlər idi bunlar...

Əvvəlcə ayaqlarından vurulmuşdular, ayaq üstə dura bilmirdilər. Bu hallarına baxmayaraq, elə müqavimət göstərirdilər ki, haradasa son nəfəsdə idilər, amma müşriklər hələ də onlara yaxınlaşmaqdan qorxurdular...

Hər biri əvvəlcə oxla başlamışdı döyüşməyə.

Oxları bitdikdə, qılınclarlını çəkmişdilər.

İki yüz düşmənə qarşı, sadəcə on Səhabə...

Tək-tək yıxılırdılar. "***Allah***" deyərək son nəfəslərini verirdilər.

Şərəflə yaşayanlar, şərəflə ölməyi də bacarırdılar təbii...

Asim həzrətləri basda olmaqla yeddi səhabə cənnətə doğru qanad açmışdılar... Amansız, insafsız və qəddar düşmən vəhşicəsinə hücum edərək yeddi səhabəni həlak etmişdi, üç nəfəri də əsir etməyi bacarmışdı...

## ARILAR

Hübeyb, Zeyd və Abdullahı əsir etmişdilər.

Bütün cəhdlərinə baxmayaraq şəhid olmamışdılar və xain düşmənə əsr düşmüşdülər.

Hər üçünü də əvvəlcə ayrı-ayrı, sonra da yenidən bir-birinə bərk-bərk bağladılar və döyüşü bitirdilər.

Məqsədləri bu üç igid səhabəni Məkkəyə götürüb aparmaq, orada müşriklərə satmaq idi. Buna görə də onları öldürməmişdilər, amma hər birini ağır bir şəkildə yaralamışdılar. Belə çıxırdı ki, həmin üç nəfər səhabəni sağlam şəkildə Məkkəyə qədər aparmağa cəsarətləri çatmırdı. Bu azmış kimi, üstəlik bərk-bərk də bağlamışdılar, müəllimləri...

- Böyük bir iş gördük.

- Hərəsi bir-birindən daha qiymətlidir bunların.

- Ölüləri də pul edəcək, diriləri də.

- Diriləri daha çox edər elədi?

- Əlbəttə...

- Dövlətli olduq, demək.

- Asimi mənə saxlayın, digərləri sizin olsun, -deyə əmr etdi rəisləri.

- Oldu rəis, Asim sənindir.

- 100 dəvəlik qənimət qazandım deməkl!

- Bəli, Asimin başına 100 dəvə qoyulmuşdu.

- Kəsək artıq bu dəyərli başı haydı!

- Təbii ki, kəsəciyik ha,ha ,ha..

- Digərlərinə də çoxlu şeylər vəd edilmişdi bilirdiniz?

- Hamısı biri-birindən dəyərli başların sahibləridir bunlar...

- Hamısının başlarını bir- bir kəsib gətirin buraya, haydı!

- Bu idi sizin verdiyiniz söz? -deyərək güldü Hz. Hübeyb.

- Bu etdiyinizi heyvan heyvana etməz, -dedi Hz. Zeyd.

- Alçaqlar! -deyə hayqırdı Hz. Abdullah.

- Susun! Narahat olmayın, sizin də növbəniz çatacaq. Amma sizi Məkkənin ən azğın düşmənləri gəbərdəcək! Həm də necə işgəncələrlə. Ha, ha, ha!

- Biz başqa bir şey də gözləmirdik onsuz da!

- Susun dedim sizə! Hey siz, tez olun bir az. Sən də Asimin başını kəs, tez ol!

- Böyük bir zövqlə!...

Vəhşi bir ədayla irəlilədi adam.

İnsanlıqdan kənar hərəkətlərlə mübarək şəhidlərin başını kəsirdilər...

Hz. Asimin başını kəsməyə gələn adam birdən qorxu ilə geriyə dogru fırlandı və qaçmağa başladı. Elə qorxmuşdu ki, digərlərini də qorxutdu.

Rəis dəlicəsinə qışqırdı.

- Nə baş verir? Ölüdən qorxursunuz?

- Arılar, arılar var!

- Nə arı? Burada arı nə gəzir?

- Həm də minlərcə, on minlərcə, bəlkə də milyonlarca...

- İllərdi burada yaşayırıq biz, çölün hər tərəfini də tanıyıram. Buralarda bir dənə də arıya rast gəlməmişəm.!

- Ancaq indi var!

- Yanılırsan bəlkə?

- Gəl özün gör rəis.

- Çəkilin buradan! Qorxaq köpəklər! Çəkilin dedim!

Rəis özündən arxayın şəkildə iri addımlarla irəlilədi şəhidin üstünə. Bir yandan da, əda ilə ətrafı süzürdü. Üzündəki çaşqın qorxu ifadəsi itdi, şeytani bir gülüşlə, vəhşicəsinə ətrafa baxmağa başladı.

- Hanı arılar?

- Amma bir az əvvəl buradaydılar! Həm də bir sürü...

- Qorxaq! Ölüdən də qorxan adamı döyüşə gətirmişəm mən! Kəs bunun başını, haydı!

- Yaxşı, rəis!

Adam elə qılıncını mübarək başa qoyduğu an, dəli danalar kimi böyürdü. Bir yandan da qaçmağa çalışırdı.

- Ahhhh!..Yandım anam!

Başda rəis olmaqla, hər biri böyük bir qorxu içində baxırdılar adama. Amma görə biləcəkləri heç bir şey yox idi. Adam bir yandan qışqırırdı, bir yandan da elə bil canı çıxırdı. Çox keçmədən boynu önünə düşdü və bədəni hərəkətsiz qaldı.

- Başdan xarab ölməyə vaxt tapdı. 100 dəvə var bu başın altında. Belə bir sərvəti heç qaçıraram mən?! Sən get kəs, haydı!

- Amma, rəis...

- Əmrlərimə qarşı  çıxırsan?

- Gəl bu işdən vaz keçək, rəis!

- Dəlisən sən? Belə bir sərvəti burada qoyub gedək?

- Sadəcə Asimdən vaz keçək deyirəm. Hamısından demirəm ki! Onsuz da o birilərinin başı kəsilib.

- Asimin kəlləsini mən istəyirəm, 100 dəvə Asimin başına verilməyəcəkdi?

- Bəli.

- Onda get kəs.

- Amma...

- Haydı! Yoxsa sənin kəlləni mən qopardaram boynundan!

- Yaxşı rəis, hirslənmə gedirəm.

- Tez ol, səbrim qalmadı artıq!

Rəisinin israrlı tələblərinə etiraz edə bilməyən düşmən qorxaq addımlarla böyük şəhidə doğru addımlamağa başladı. Böyük bir diqqətlə və həyəcanla ətrafı süzürdü. Görüntüdə diqqəti cəlb edəcək heç bir şey yox idi. Elə qılıncını çıxarmışdı ki, birdən, haradan gəldiyini anlamadığı arı sürüsünün hücumuna məruz qaldı. Yazığın qışqırıb bağırmağa belə vaxtı qalmadı.

- Nə oldu bunlara, -deyə əsəbiləşdi rəis.

- Bu işdə bir qəribəlik var!

- Nə qəribəlik var, ay axmaq?

- Hirslənmə rəis. Onları sən özün də gördün.

- Mən heç bir şey görmədim. Bizim axmaqlar Asimdən o qədər qorxublar ki, ölüsünün yanına belə yaxınlaşa bilmirlər! Yanına gedə bilən də ki, elə oradaca gəbərir!

- Sanki, gözəgörünməz bir varlıq onlara hücum edir.

- Hamınızı gəbərtmək lazımdır. Mənə bax, kəlləni dağıtmağımı istəmirsənsə, get onun başını kəs gətir.

- Amma...

- Hələ buradasan?

Rəisin hücumundan qaçan düşmən özünü bir anda Asimin yanında gördü. Qorxa-qorxa böyük şəhidə doğru baxdı. Necə də gülümsəyirdi Asim! Bu şəkildə parçalanmış bir cəsədin belə gülümsəməsinə ilk dəfə rast gəlmişdi. Əlindəki qılıncını qaldırıb vurmağa qıymırdı artıq. Bu üzün sahibinə heç qılınc çəkmək olar? İlk dəfə idi ki, onu bu qədər yaxından görürdü. Birdən, qanı qaynamağa başladı.

Az qaldı ki, əyilib şəhidi qucaqlasın. Amma rəisin bağırması və ölümlə hədələməsi, ilk dəfə dadmağa başladığı bu gözəl duyğularının yerini dəyişdi. Həyatda qalmaq üçün öldürməyə məcbur idi. Üzünə baxsaydı, vura bilməzdi qılıncı. Nəfəsini tutub gözlərini yumaraq qılıncı vuracaqdı ki, birdən, bütün qanının çəkildiyini və zəhərləndiyini hiss etdi. Yerə necə yıxıldığını başa düşə bilmədi…

Bu hadisə qarşısında rəis də, adamları da çaşıb qalmışdı. Üç böyük əsir isə göz yaşlarında boğulurdular. Əsirlərin göz yaşlarını görən rəis onları ələ salmağa və gülməyə başladı.

- Qorxmayın, sizi öldurməyəcəyik!

- Ölumdən qorxduğumuzu kim dedi sizə?

- Bəs niyə ağlayırsınız ?

- ***Gözünüz görmür, qəlbiniz hiss etmir***. Artıq ağlınızı da işlədə bilmirsiniz!

- İndi bu nə deməkdi?

- Asim qardaşımızın başını kəsə bilməyəcəksiniz.!

- Niyə?

- Həyatı boyunca bir tək müşrikə toxunmayan, özünə də müşrik əli toxundurmayan bir adam idi o!

- Nə deməkdir indi bu?

- *«Ya Rəbbi! Cəsədimə müşrik əli dəydirmə» deyə də dua etmişdi son nəfəsində! Ona görə də qardaşımızın cəsədinə toxunmayın*!"

- Toxunmaq nə deməkdir? Parça-parça edecəyəm onu! Görəcəksiniz!

- Gördük!

Çox pis halda hirslənən rəis adamlarının yanına getdi.

Ağzından köpüklər saçaraq, bütün kini və əsəbi ilə bağırdı:

- Haydı! Hücum edib, kəsin bunun kəlləsini!

Adamlar hamısı birlikdə tərəddüd etmədən hücum etdilər. Ölmüş bir adamın başını kəsmək üçün bu qədər adam hücum edirdi. Rəis də artıq kəllə əlindəymiş kimi gəzirdi.

Ancaq bütün adamlarının böyük bir təxribata uğradığını görüb, dəliyə döndü.

- Axmaqlar, qorxaqlar! Hara qaçırsınız?

- Arılar.. Arılar!.. Arılar!

- Bu qədər insan arıdan qaçar?

- Qaçın rəis, siz də qaçın, yoxsa hamımızı öldürəcək bunlar.

- Nə oldu sizin qəhrəmanlığınıza? Hara getdi sizin cəngavərliyiniz?

- Qaçın rəis, qaçın dedik sizə!...

Doğrudan da, milyonlarla arı bulud kimi əsir, dolu kimi yağırdı. Nəhayət ki, rəis də arı dəstəsinin hücumunu gördü. Böyük bir uğultu ilə əsərək gəlirdilər. Qaçanlara dəymirdilər, amma Asimin yanına gəlməyə çalışanlara dəhşətli bir şəkildə hücum edirdilər. Rəisin adamlarının yarısı qırılmışdı. Çaşıb qalan rəis əmr verdi:

- Geri çəkilin! Tez çəkilin!

- Aahhh, yandım anam!

- Geri çəkilin, dedim axı sizə! Tez olun bir az!

Qaçışmağa başladılar. Rəis də çəkilməyə icazə verdiyinə görə, canlarını dişlərinə sıxıb qaçdılar Hz. Asimin yanından.

- Axşamı gözləyək. Axşama doğru arılar dağılıb gedər. Baxarıq görək, onda kim qurtaracaq onu bizim əlimizdən?

- Allah!

- Siz də susun artıq! Sizdən soruşan var?

- İndi qurtaran Allah, onda da qurtarar Asim qardaşımızı.

- Əgər qurtaracaqdısa, nə üçün ölmələrinə izin verdi?

- Kim bilir, bəlkə də hüzurunda şəhid rütbəsi vermək üçün.

- Sizi niyə almadı yanına bəs?

- Onu da Allah özü bilir!

- Susa bilərsiniz?

Əsəbindən quduran rəis, yerindən durub əlləri sıx bağlanmış əsirləri vurdu. Elə bil, yırtıcı, vəhşi siması var idi üzündə. Yorğunluqdan keçib bir kənarda oturdu.

Əsirləri böyük bir qayaya bağladılar.

Ölmüş dostlarını belə dəfn etməyən bu yırtıcılar böyük bir iştahla yeyib-içməyə başladılar.

Heç bir ölçünün, heç bir dəyərin nəzərə alınmadığı, heç bir insanlıq xüsusiyyətinin qalmadığı bu yerdə insafsız, vicdansız və dəyərsiz adamlar idi.

- Namaz qılmaq istəyirik.

- Nə namaz?

- Günorta namazı!

- Elə demək istəmədim.

- Namaz qılmaq istəyirik dedik.

- Mən də icazə vermirəm dedim!

- Sizdən icazə almırıq ki!

- Nə deməkdir indi bu?

- Namazı əmr edən Allahdır. Namaz qılmaq üçün Ona inanmayanlardan icazə istəyərlər?

- Necə yəni, mən icazə verməsəm də namaz qılacaqsınız?

- Əlbəttə!

- Elə isə, icazə vermirəm. Qılın görüm, necə qılırsınız!

- Əlimizi, ayağımızı açın, dəstəmaz alaq...

- Bezdirdiniz məni. Kəsin səsinizi, yoxsa!

- Nə olacaq yoxsa?

- Susun da!

Rəis açdı ağzını, yumdu gözünü. Əsirlərə demədiyi söz qalmadı. Vəziyyət çox gərgin idi.Yemək-içmək belə dayanmışdı.

Əsirlər bu vəhşilərlə insan kimi danışmağın mənasız olduğunu gördülər. Onun üçün də danışmaqdan vaz keçib bağlı olduqları qayaya sürtünərək, bacardıqları kimi təyəmmüm aldılar. Bacardıqları qədər qibləyə dönərək, namazlarını qıldılar. Rəis və adamlarının başı yeyib-içməyə qarışdığı üçün əsirlər namazlarını qıla bilmişdilər. Amma rükuya və səcdəyə gedə bilmədilər. Yenə də, heç olmasa qibləyə doğru dönmüşdülər. Bu imkanı bəxş edən Allaha şükür və dua etdilər.

İkindi namazlarını da eyni şəkildə qılmışdılar və nəhayət, axşam olmuşdu.

Bu müddət ərzində Hz. Asimin başını kəsmək üçün bir neçə dəfə cəhd etmişdilər, amma hər dəfəsində də arıların hücumuna məruz qalmışdılar.

Qaranlıq düşsə də arılar getmədi. Bunun üçün də əsirlər axşam namazı qılmağa çətinlik çəkdi. Rəisin adamları onları gözdən qoymurdular, bütün hirslərini və əsəblərini bunlardan almaq istəyirdilər. Buna baxmayaraq, birtəhər namazlarını qıldılar.

Hər nə olursa-olsun, namaz əsla tərk edilməz, biləbilə də qəzaya saxlamaq olmaz. Namaz İslamın ən böyük şüarı və təməl ibadətidir. Namaz qılmadan İslam olmaz. Müsəlman da namazsız yaşaya bilməz...

## YAĞIŞ

- Haydı, artıq kəsək bu kəlləni.

- Bəs yenə də arılar hücum etsə?

- Hava tam qaraldı, görmürsünüz? Bu havada arılar qalmaz.

- Bir az da gözləyək də, rəis!

- Gedin kəsin o kəlləni, tez olun!

- Yaxşı, rəis, əsəbiləşmə... Gedirik indi. 8-10 nəfər qaranlıqda qorxa-qorxa Hz. Asimin nəşinə doğru getməyə başladılar. Ən kiçik səs belə onları diksindirirdi. Hamısı qılınclarını hazırlayıb, bir anda bu işi bitirmək istəyirdilər. Hətta nəfəs belə almamağa çalışırdılar. Heç bir səs və hücum olmadığını görüb ürəkləndilər və şəhidə yaxınlaşdılar.

- Kəsdiniz? -deyə rəis bağırdı.

- Hələ yox, amma kəsmək üzrəyik.

- Heç bir şey yoxdu?

- Heç bir şey yoxdu.

- Onda tez olun!

Heç bir şey olmadığına görə ürəkləri yerinə gəldi. Olduqca rahat hərəkət edərək hücum etdilər böyük şəhidə.

Şəhidin başını tam kəsəcəkləri an, elə bir şimşək çaxdı ki, az qala həmin an şəhidin yanında canları çıxacaqdı. Arxasınca yenə də, yenə də...

Göylər qəzəbə gəlmişdi sanki. Göy gurultusu, şimşək və yağış...

Lihyan oğulları qaçaraq aradan çıxmağa çalışırdılar. Sığınmağa, daldalanmağa bir yer axtarırdılar. Özlərini tanıyandan bəri belə yağış görməmişdilər buralarda. Belə yağış yağmazdı, belə göy guruldamazdı buralarda. Belə bir şeyi nə görmüşdülər, nə də ki, eşitmişdilər. Amma indi artıq bu dəhşətin, bu həyəcanın içərisində idilər...

Nə baş verirdi burada? Bütün bunlar nəyi göstərmək istəyirdi görəsən? Bir-birilərinə qorxu ilə baxarkən, birdən, yağış kəsildi. Hava açıldı. Bir yandan ay, bir yandan da ulduzlar çıxıb dünyanı gözəlləşdirdi.

Hər tərəf quru idi!

Elə bil, bir az əvvəl tufan kimi yağış heç burada yağmamışdı! Nələr olurdu, nələr baş verirdi? Dəhşətlə guruldayan göy, qorxunc bir şəkildə çaxan şimşək, dəhşətli bir şəkildə yağan yağış və böyük bir gurultu ilə axıb gedən sel, bir yuxu idi? Belə bir yuxu ola bilər? Ancaq belə yuxu olmaz axı! Əgər doğrudandırsa, bəs niyə yerdə izləri yox idi?

Bəs niyə hər tərəf belə qurudur?

- Nə gizlənmisiz hələ də? Qorxmağa heç bir səbəb yoxdur.

- Özü qorxmurdu elə bil!

- Ay aman, eşitsə, dərimizi üzər bizim!

- Asim böyük bir güç tərəfindən qorunur dostum! Olanlardan bunu başa düşürəm mən!

- Sus, rəis eşidəcək!

- Eşidirsə eşitsin də!

- Ortalığa çıxın da! Haradasız ay qorxaqlar?

Rəisin qışqırığına hamısı çıxdı ortalığa. Ətrafa həm inanmayan, həm də qorxan gözlərlə baxırdılar. Hər tərəf qup-quru idi! Bir az əvvəl tufan kimi yağış yağmamışdı sanki!

- Gördünüz, yağış yağdı, qurtardı. Qorxmalı bir şey qalmadı.

- Yağış yağdı, amma...

- Amması nədi?

- Yağış yağdı, amma hər tərəf qurudur, bax rəis!

- !

Rəis bir anlığa donub qaldı. Yerin quru olduğunun fərqində deyildi. Ayağı ilə eşələdi əvvəlcə, sonra inanmayan gözlərlə baxıb, çömələrək ovucladı torpağı. Quru idi. Torpaq qum kimi qup-quru idi!.. Necə ola bilər axı? Lihyan oğulları qəbiləsinin böyük, güclü rəisi idi. Nə edəcəkdi indi? Necə izah edəcək bunu? Başa düşmədiyi bir şeyi necə izah edə bilərdi ki? Ancaq belə çöməlmiş vəziyyətdə də qala bilməzdi!

- Yağış rüzgarla birlikdə əsib keçmişdi.

- Amma çox güclü yağış yağmışdı!

- Dəhşətli bir şəkildə, sel kimi!

- 100 dəvəlik bir sərvət bizi gözləyərkən, bunları danışmağın heç yeridir?

- Rəis doğru deyir.

- Əlbəttə ki, doğru deyirəm axmaq! Gedin kəsin bu adamın başını. Səhərdən burada vaxt itiririk. Kəsib gətirin bu kəlləni!

- Kəsək, rəis!

Yenə 8-10 adam getməyə başladı Hz. Asimə doğru. Hələ də bir-iki nəfərlə getməyə qorxurdular. Böyük bir diqqətlə irəliləyirdilər. Nə arılar qalmışdı, nə də yağış. Qılınclarını yenə çəkmişdilər, vaxt itirmək istəmirdilər...

## İTƏN ŞƏHİD

Asim yoxdur!...

Asim hara getmişdi?

Şəhid etdikləri müəllimlərdən altısı da yerdə yatırdı. Amma Asim yox idi aralarında!

Ölmüş bir adam hara gedə bilər?

Çaşıb qalan gözlərlə ətrafa baxırdılar. Bəlkə də, qaranlıq olduğuna görə görmürdülər. Hər tərəfə yaxşı-yaxşı baxdılar, axtardılar, amma yox idi. Asimin cəsədi yox idi ölülərin arasında!

- Harada qaldınız siz?

- Asim yoxdur, rəis!

- Necə yəni, yoxdur?

- Yoxdu da!

- Bu nə deməkdir? Necə yəni, yoxdur? Kəsib gətirin artıq bu kəlləni.

- Yoxdur rəis, necə kəsək?

- Yaxşı baxın! Qaranlıqdır, yəqin ona görə görmürsünüz.

- Digərlərini görürsünüz, Asimi niyə görmürsünüz?

- Gəlsəm ora, dərinizi soyacam!

- Gəlib Asimi tap, sonra nə edirsən et!

Rəis digər bir neçə adamı ilə birlikdə şəhidlərin yanına doğru yönəldi. Bir yandan tələsik addımlarla irəliləyirdilər, bir yandan da çox əsəbi idilər.

- Axmaqlar, bir işi bacarmadınız!

- Bax görək rəis, sən tapa biləcəksən?

- Əlbəttə, taparam, sizin kimi koram?

Əlindəki oxunu yayı ilə bir-iki adama vurub, «*Çəkilin, çəkilin, axmaqlar!*» -deyə əsəblə donquldandı. Öldürdükləri məsum müəllimləri əsəblə təpiklədi. Hər birini ayrı-ayrı yoxlayıb diqqətli bir şəkildə axtardı. Asimi görə bilmədi.

Şəhid müəllimləri bir-bir yoxlayıb, diqqətlə saydı, 6 nəfər yerdə yatırdı. Hər biri, parça-parça, tikə-tikə idilər. Bu 6 nəfərin arasında Asim yox idi! Təəccübünə həm qalib gəlməyə, həm də adamlarına hiss etdirməməyə çalışaraq, yenə də şəhidləri yoxladı. Yoxdur, baxın! Asim yoxdu aralarında.

Ölməmişdi, bəlkə? Öldürməmişdiniz? Ancaq atdıqları oxlar ayaqlarını qırmış, ayaqları dizlərindən qopmuşdu. O qədər oxun qarşısında, mizrağın biri sinəsindən girib, kürəyindən çıxmışdı. ***Allah*** deyərək yıxılmışdı yerə. Başına yüz dəvəlik böyük bəxşiş qoyulduğu üçün hər biri var gücləri ilə hücum etmişdilər, qılınc yarasından tanınmayacaq bir hala gəlmişdi. Bəs belə vəhşicəsinə parçalanan bir cəsəd hara və necə gedə bilər? «*Allah lənət etsin,*» -deyə

bağıraraq, rəis yenə şəhid müəllimləri təpiklədi. Sağa-sola lənət yağdırmağa başladı.

- Axmaqlar, siz itirdiniz, hər yerə baxın! O boyda adamı itirdiniz.

- Biz itirmədik, rəis, özü itib getdi.

- Özü-özünə necə itə bilər?!

- Bəlkə, bizim bilmədiyimiz bir güc alıb aparmışdı onu!

- Elə şey olar?

- Hara getdi yaxşı?

- Onu mən sizdən soruşuram, axmaqlar!

- Boş yerə axtarmayın, Asimi heç vaxt tapmayacaqsınız!

Hz. Hübeyb dayana bilməyib dilləndi. Saatlarca axtarılmağına baxmayaraq tapmamışdılar. Asimin duasını və uca Allahın lütfünü haradan başa düşəcəkdilər. Üstəlik, Hübeyb də onları xəbərdar etmişdi.

- Niyə əldə edə bilməyəcəyik Asimin başını?

- Onu Allah qoruyacaq!

- Allah qoruyacaq?

- Bəli, artıq qorudu.

- Başını kəsib, cəsədini parçalayacağıq.

- Tapa bilsən əgər!

- Gec-tez tapacağam ...

- Bəs niyə tapa bilmədiniz?

- Əliniz-qolunuz bağlı, bu cür əziyyət və işgəncədən sonra, necə danışa bilirsiniz?

- Bizə güc verən və danışdıran Allahdır!

- Qurtarın! Dua edin ki, Məkkəyə satıb, pul alacağıq sizə görə. Yoxsa, darmadağın etmişdik hamınızı.

- Gedək artıq rəis, -adamlardan biri dedi.

- Yığışın, gedirik, -deyə bağırdı rəis.

Lihyan oğulları üç əsirlə birlikdə Məkkə istiqamətinə doğru yola çıxdılar. Mərruzzahran mövqeyinə çatana qədər əsirləri min bir təhqir və əziyyətlərlə aparmışdılar. Əsirləri elə çəkib sürüyürdülər ki, ən sonunda Abdullah b. Tariq özünü saxlaya bilməyib dilə gəldi:

- Mən sizin kimi alçaqlarla gəlmərəm!

- Gəlib-gəlməyəcəyini səndən soruşacağıq? Gəl, tez ol!

- Xeyr, bir addım da atmaram!

- Ölmək istəyirsən sən?

- Ölmək, sizin kimi alçaqlarla yola çıxmaqdan yaxşıdır!

- Tez gəl!

- Xeyr, ölsəm də sizinlə getmərəm.

Kimisi sürüyür, kimisi vurur, kimisi də alçaldırdı. Bu zaman, necə bacardısa, bağlı olduğu iplərdən xilas oldu Abdullah. Birdən, dönüb birinin qılıncını əlindən alaraq, döyüş vəziyyəti aldı.

- Gəlin görüm!

- Etmə Abdullah, ölmək istəmirsənsə, qılıncını at!

- Gəlin öldürün, gəlin!...

- Öləcəksən, Abdullah!...

- Hamınız öləcəksiniz!

- Mən də bunu istəyirəm. İçinizdə məni öldürəcək bir kişi yoxdu?

Axşamın qaranlığında qarşılıqlı vuruşdular bir az. Abdullahın təslim olmadığını görən canilər, daş yağışına tutdular onu. Yanına yaxınlaşa bilmirdilər çünki. Daş yağışını qılıncı ilə nə qədər dayandırmağa çalışsa da, bacarmadı Abdullah.

Böyük daşlar ilə başını-gözünü yardılar. ***Allah***, deyərək yerə yıxıldı Abdullah. Hamısı birdən hücum etdilər, qılınc və oxlarla para-para etdilər Abdullahı ... O da digər şəhid dostları ilə görüşmək üçün quş kimi çırpınırdı...

Bu əsnada Hübeyb ilə Zeydi də möhkəm tutmuşdular, kəndirlərinin üstündən yenə də kəndir ataraq daha da möhkəm bağlamışdılar. Nə qədər çırpınsalar da, kömək edə bilmədilər dostlarına. Yaşlı gözlərlə onları izləyib «*Şəhadətin mübarək olsun, qardaşım*». sözlərini dedilər, Hübeyb ilə Zeyd...

Abdullah b.Tariq Mərruzzahranda idi artıq...

Mərruzzahranı şərəfləndirmişdi Hz. Abdullah (r.a.)!

Mərruzzahranı keçmiş Məkkəyə yaxınlaşmışdı. Hər biri Məkkə müşriklərindən alacaqları pulun xəyalı ilə buraya qədər dincəlmədən gəlmişdilər. Amma artıq gəzməyə

halları belə qalmamışdı. Məcburən dincəlməyə qərar verdilər.

Dərhal bir yerə yığılıb əşyalarını da yanlarına qoydular. Hübeyb ilə Zeydi də yenə bir qayaya çox bərk bir şəkildə bağlamışdılar. Bir-birilərinə baxıb, qarşılıqlı səbir dilədilər.

## QARA XƏBƏR

Lihyan oğulları Məkkəyə böyük bir gurultu ilə girdilər. Təbillər çalınır, dəflərə vururdular. Böyük bir çal-çağır var idi... 7 yaşından 70 yaşına qədər bütün Məkkə sakinlərinin hamısı küçələrə tökülmüşdü.

- Sevinin Məkkəlilər, sevinin, intiqamınızı aldıq, sevinin!...

- Nə sevinc, nə intiqam, nə deyirsiniz siz?

- Bədir və Uhud döyüşlərində qohumlarınızı öldürənlərdən 7 nəfəri, qurda-quşa yem olsunlar deyə

Rəci quyusunun yaxınlığında yerə sərdik!

- Nə deyirsiniz siz?

- Sevincli xəbər gətirdiyimizi deyirik.

- Bircə izah edin görək!

- Yeddisini Rəcidə, birini də Mərruzzahranda yerə sərdik.

- Yəni 8 nəfəri öldürdünüz?

- Bəli! Müsəlmanlardan, həm də ən çox fəal olanlarından 8 nəfərini öldürdük.

- Ürəyimizə su səpmisiniz ki siz!

- Tapın görək, bunlar kimdi?

- Kimlərdi deyin?

- Hübeyb ilə Zeyd!

- Bədir və Uhud qatilləridir bunlar!

- Bəli, Bədir  və Uhud qatillərini gətirdik sizə!

- Onları mən istəyirəm.

- Yox, mən!...

- Yox, mən!...

- Mən istəyirəm!...

- Mənə təslim edin onları.

- Mənə verin!...

- Susun, məni dinləyin! Belə, hər bir ağızdan bir səs çıxarsa, hansı birinə cavab vərəcəyik biz? İstədiyimiz pulu ödəyən, əsirləri alar!

- Nə qədər istəyirsiniz?

- Sadəcə bunlara deyil, öldürdüklərimizə görə də ödəyəcəksiniz.

- Öldürdüklərinizə görə niyə ödəməliyik?

- İntiqamınızı aldığımız üçün.

- Haqlısınız. Bəs bunlara nə qədər istəyirsiniz?

- Bunları  bura gətirmək çox baha başa gəldi bizə. Dəyərini də siz biçin.

- Bazarlıq, alış-veriş edək onda.

- Yaxşı olar.

Bədir və Uhud savaşlarında, kimin bir yaxını və hətta tanıdığı ölmüşsə, o talib olurdu əsirlərə. Belə ki, onlar talib olduqca, əsirlərin qiyməti artırdı. Nəticədə, hər birindən bir şey qoparmağı bacarmışdı Lihyan oğulları. Bir əsiri yüksək qiymətə satırdılar.

- Sülafə qadın haradadır?

- Nə edəcəksən Sülafəni

- Acılarını dindirəcəyəm!

- Necə?

- Asimi öldürdük!

- Asimi öldürdünüz!

- Bu məşhur Asimi?

- Bəli

- Sadəcə Sülafəni deyil, bütün Məkkəni sevindirər bu xəbər.

- Amma ən çox da Sülafəni sevindirər elə deyilmi?

- Əlbəttə! Sülafə qadın Asimin başını gətirənə 100 dəvə verəcəyinə söz vermişdi. Çünki Sülafə Uhud döyüşündə müsəlmanlar üzərinə fırtına kimi əsmişdi, amma yenə də başda oğlu olmaqla, yaxınlarını da itirmişdi. Buna görə də o, kin saxlayırdı.

- Bəs yaxşı, Sülafə haradadır, necə tapa bilərik?

- Bax, bu tərəfə gəlir.

Hamılıqla bayram ab-havası yaşanırdı; 8 müsəlmanın öldürülməsi onları çox məmnun etmişdi.

- Kimdi məni axtarıb soruşan, Lihyan oğullarının rəisi?

- Sən sülafəsən?

- Bəli, sən kimsən?

- Lihyan oğullarının rəisi.

- Nə istəyirsiniz siz?

- Müjdəmizi istəyirik!

- Acımı azaldacaqsa, istə istədiyini.

- Asimi öldürdük!

- Asimi öldürdünüz ?

- Bəli, onu öldürdük.

- Bu necə sevincli xəbərdir belə?

- 100 dəvə verəcəyinizə söz vermişdiniz.

- Doğrudur, Asimin başını gətirənə 100 dəvə mükafatını verəcəyimə söz vermişdim.

- Asimi biz öldürdük!

- Çox böyük bir iş bacarmısınız.

- Mükafatını da istəyirik...

- Başını gətirin,100 dəvəni aparın.!

- Asimin başını gətirənə demişdim.

- Onu öldurdük, amma.

- Oldu, gedin başını gətirin,100 dəvəni də aparın.

- Asimin  başı gəlməsə, biz dəvələri ala bilməyəcəyik!

- Başı gəlməsə, bir dənə də olsun dəvə ala bilməzsiniz!

- Bu pis oldu.

- Niyə?

- Necə başa salacağımı bilmirəm.

- Nəyi?

- Asimi öldürdük, amma başını kəsmədik!

- Niyə?

- Heç səbəbini mən də başa düşə bilmədim ki?

- Ölü adamın başını kəsə bilmədiniz?

- Dedim axı, necə izah edəcəyimi bilmirəm.

- Asimi öldürmədiniz siz?

- Öldürdük.

- Niyə başını kəsib gətirmədiniz bəs?

- Öldürdük də, bu bəs deyil?

- Bəs deyil, Asimin başı ilə şərab içməyə söz vermişdim! Əgər öldürmüsünüzsə, gedin gətirin.!

- Asimin ölüsü yox oldu!

- Başa düşmədim?

- Asimi öldürdük, amma ölüsü yoxa çıxdı!

- Necə olur bu?

- Biz də başa düşmədik.

- !..

Olanları, baş verənləri uzun-uzadı danışdı Sülafə qadına. Necə də olsa, axırda 100 dəvəlik böyük bir sərvət

var. Ancaq Sülafə «*Asimin başını gətirməsəniz, 100 dəvəni almayacaqsınız*!» sözlərini təkrar edirdi...

❁

Rəci hadisəsi günlərlə danışıldı Məkkədə. Danışmağa hələ də davam edirdilər. Müşriklər böyük bir zövq almışdılar bu hadisədən.

- Lihyan oğulları böyük iş bacardılar doğrusu.

- İki böyük müharibə, bir xeyli də kiçik döyüş oldu, amma yenə də başa çıxa bilməmişdik onlarla...

- Bədir onlar üçün açıq bir zəfər olmuşdu...

- Uhudda biz qalib gəlmədik bəyəm?

- Vallah, qalib gəldik, yoxsa bərabərlik oldu, yoxsa uduzmaq oldu, başa düşmədik.

- Bəs indi?

- İndi Lihyan oğulları etdi bizim edə bilmədiklərimizi.

- İntiqamımızı aldılar onlardan!

- Onları zəiflətmək lazımdır.

- Necə?

- Müsəlmanları 10-20 nəfərlik qrup şəkilində tələyə salmaqla.

- Rəcidə olduğu kimi.

- Asimi mən öldürmək istəyərdim, əslində.

- Niyə?

- Bədir və Uhud döyüşlərində nələr etdiyini görmədin?

- Yadıma düşdükcə tüklərim biz-biz olur.

- Əqabə beyətləri deyilən o gizli iclaslardan əvvəl müsəlman olmuşdu, Asim. Əqabə beyəti əsnasında «*Heç bir müşrikə toxunmayacağam və heç bir müşrik də mənə toxunmayacaq*!» -deyə söz vermişdi.

- Bədirdə fırtına kimi əsmişdi, Uhudda ayrı bir tufan olmuşdu.

- Müsəlmanların dağılışıb qaçdıqları zaman belə, o bizim ən çətin düşmənimiz idi.

- Nə isə, qurtulduq artıq!..

- Hamısından canımız qutaracaq görəsən?

- Arzumuz budur, canımızı hamısından qurtarmaqdır.

İslam təbliğçiləri heyətinin Rəci quyusu ətrafında faciəvi şəkildə şəhid edildikləri xəbəri Mədinədə yayılmağa başlamışdı.

Peyğəmbərimiz (s.ə.s) çox məyus olmuşdu, şəhidlərin əmanət qoyub getdikləri arvad-uşağı ilə daha da yaxından maraqlanmışdı. Əshabələrinə də onlarla maraqlanmalarını tapşırmışdı, onları tək başına, kimsəsiz buraxmamalarını istəmişdi; onlar da canla-başla bu tapşırıqlara riayət etmişdilər.

İrşad heyəti Rəci quyusu ətrafında döyüşə başlayarkən Hz. Asim «*Ya Rəbbi! Peyğəmbərini halımızdan xəbərdar et*!» -deyə dua etmişdi. Peyğəmbərimizə (s.ə.s) salavat və salam göndərmişdi... Peyğəmbərimiz (s.ə.s) də Allahın

bildirməsi ilə, həmin vaxt bu xəbəri almışdı və igid səhabənin salamına cavab vermişdi. Ancaq, təəssüf ki, artıq o hadisəyə qarşı ediləcək bir şey yox idi!

## İKİ ƏSİR

Hübeyb ilə Zeyd əsir düşmüşdülər...

Müşriklərin başçılarnın əmri ilə tutulan bu iki səhabənin təslim olmaqdan başqa çıxış yolu yox idi.

Bəşər olaraq, artıq edə biləcəkləri başqa bir hərəkət yox idi. Qəlblərini də Uca Allaha vermişdilər. Peyğəmbərimizin (s.ə.s) və səhabə dostlarının ayrılığına dözə bilmək üçün, Allah-Təaladan səbir dilədilər. Allaha güvənərək bütün qorxular, dağılmışdı. Daşları, qayaları, dağları əridən bir sükunət ilə səssizliyə, susqunluğa dönmüşdülər.

Onlar Allah-Təala ilə birlikdə idilər, Allah da onlarla idi.

Hər ikisini də, fərqli yerlərdə həbs edib saxlayırdılar, əzab verirdilər. Hər birinə vəhşicəsinə, qəddarlıqla, insanlığa sığmayan işgəncələr vermişdilər. Hər ikisini də dinlərindən döndərmək istəyirdilər, buna görə də dözülməz əzablar verirdilər.

Müşriklər özləri elə bir cəhalət, elə bir səviyyəsizlik içərisində idilər ki, həmin səhabələrin dünyalarını, dəyərlərini başa düşməkləri, qavramaqları mümkün deyildi. Dinlərindən dönmələri üçün onlara ağla gəlməyən işgəncələr edirdilər.

Nə ilə və kimlərlə bazarlıq etdiklərini isə dərk edə bilmirdilər.

Dərk edə bilmirdilər ki, imanları barəsində bazarlıq etdikləri, imanlarından vaz keçirmək istədikləri bu səhabələr məhz iman abidələri idi. Düşmənlər isə bunun fərqində deyildilər.

Əvvəlcə bir olan Allahı, sonra da canlarından daha əziz bildikləri Peyğəmbərimizi (s.ə.s) inkar etsələr, dərhal sərbəst buraxılacaqlarını, və s... və s... kimi, bir müsəlmanın əsla qəbul etməyəcəyi şeyləri tələb edirdilər.

Dünyanı ayaqlar altına almış olanlara belə bir təklif sadəcə təhqirdir.

Allah və Rəsulundan (s.ə.s) vaz keçməyəcəklərini başa düşdükdə isə işgəncələrin ən dözülməzlərini edirdilər.

Əsarət altında olarkən belə Allaha və Rəsuluna olan məhəbbətləri və tam şəkildə təslimiyyətləri səbəbiylə nurlu bir ulduz kimi parlamışdılar. Quran ipinə möhkəm-möhkəm bağlanmışdılar, onun bəxş etdiyi əzmlə, mətanətlə hər cür işgəncəyə dözmüşdülər, onun sayəsində həyatda qala bilmişdilər. Onunla yaşamaq və onunla ölmək ən böyük şücaətləri idi. Hər ikisi də müşriklərə İslamın və imanın gur səsini eşitdirmək kimi bir fürsət tapmışdılar. Bu fürsətin hər saniyəsini böyük bir vəcdlə dəyərləndirirdilər, bu dəyanətli hərəkətləri səbəbiylə də nəsibsiz və şərəfsiz müşrik cəlladlarını əsəbiləşdirirdilər.

❋

Nəhayət, bu iki can dostunu bir-birindən ayırdılar.

Hübeyb Maviyənin evində, Zeyd də Nistasın evində həbs edildi.

Əvvəlki işgəncə və əziyyətlər ikisinə də pis təsir etmişdi. İndi də işgəncə və əziyyətlərin yeniləri başlayacaqdı.

İki əsir bir-birilərini görmürdülər artıq...

Zeyd başqa bir evdə idi, Hübeyb başqa bir evdə.

Hər ikisinə də ayrı-ayrı, yeni-yeni işgəncələr edirdilər, vəhşiləşmiş müşriklər intiqamlarını alırdılar. Tez bir vaxtda öldürməmişdilər, əzabları əzabların dalınca etmişdilər bu iki əsirə.

Bütün dünyanı qucaqlayacaq qədər güclü bir imana sahib olan bu iki mübarək əsir, dərin bir səbir və tam bir təvəkkül içində uca Allaha qovuşacaqları günü gözləyirdilər.

Çünki onlar Allah Rəsulu tərəfindən uca bir məqsəd üçün vəzifələndirilmişdilər. Yəni müsəlman olanlara Qurani-Kərim və sünneyi-səniyyə çərçivəsində İslamın gözəlliklərini öyrətmək üçün bu yola çıxmışdılar. Bu yolda başlarına gələ biləcək hər bir şeyi qabaqcadan qəbul etmişdilər.

Elə öldürməyə qərar vermişdilər ki, haram aylar başladı. Haram aylarda adam öldürməzdilər. Belə bir adətləri var idi.

❁

- İndi etdiklərinə nə qədər də peşmansan, elə deyilmi?

- Xeyr, peşman deyiləm.

- Başa düşmədim?

- Peşman deyiləm dedim. Bunu başa düşməyəcək nə var ki? Biz döyüş meydanında vuruşmuşuq. Bu gün olsa, yenə vuruşaram.

- Amma, bu gün əlimdəsən! Dua et ki, haram aylardayıq. Haram aylar bitənə qədər burada bağlı qalacaqsan. Amma heç şübhən olmasın ki, ölməyəcək qədər, edam kürsüsünə gedə biləcək qədər gücün qalacaq! Hər gün peşmançılıq dolu anlar yaşayacaqsan burada! «*Ey birliyin ortasındakı şahin; ürəyi yumşaq və tər-təmiz olan... Bədirdə igid və qəhrəman*!» -deyə, yazdığı şeirləri ilə fəxr edən Həsən b. Sabit gəlib qurtarsın səni əlimizdən!

- Qurtuluşun nə olduğunu müşriklər haradan biləcək?

- Qurtuluş sizi yox etməkdir! Həm də bir nəfər belə saxlamadan!

- Niyə?

- Bir də niyə deyə soruşursan? Sizdən böyük düşmənimiz yoxdur bizim, heç olmayacaq da!

- Biz sizin xurma bağçalarınıza göz dikmişik?

- Xeyr!

- Qan davasına görə üzündən vuruşduq?

- Xeyr!

- Evinizə-eşiyinizə göz tikdik?

- Xeyr!

- Malınıza-mülkünüzə hücum etdik?

- Xeyr!

- Yoxsa, başqa bir məqsəd üçün qarşı-qarşıya gəldik?

- Xeyr!

- Yaxşı, bəs neylədik sizə?

- Bəs niyə bütlərimizə düşmən oldunuz siz? Deyə bilərsinizmi, nə etdilər sizə?

- Biz də onu deyirik. Heç bir şey etmədilər, etməzdilər də. Nə bir yaxşılıq, nə də pislik!

- Elə isə, niyə onlara qarşı çıxdınız?

- Onları özünüzə sipər edərək etdiyiniz zülmləri bitirmək, insanları köləlikdən qurtarmaq istədik.

- Eləmi?

- Elədir.

- İndi gününü görərsən -deyə bağırdı və əli-qolu bağlı olan adamı vurmağa başladı...

Hübeyb bir yanda, Zeyd də bir başqa tərəfdə idi. Onlara cürbəcür işgəncə və əziyyət verirdilər, bir dəqiqə belə rahat buraxmırdılar.

❁

Mədinədən ayrıldıqlarından üzü bəri tam 5 ay keçmişdi. Bu 5 ay içində çox böyük çətinliklər çəkmişdilər. Xüsusilə də bu vəhşi müşriklərin etmədikləri qalmadı bu iki əsirə. Hətta dinlərindən döndərmək üçün işgəncələr də etmişdilər. Dinlərindən heç vaxt dönməyəcəklərini anlayınca, işgəncələrini artıraraq, çəkə bilməyəcəkləri dərdləri, əzabları vermişdilər. Tam öldürməyə qərar vermişdilər ki, haram aylar dedikləri 4 ayın başlanğıcı olan Rəcəb ayı girmişdi.

*Rəcəb, Zilqədə, Zilhiccə* və *Məhərrəm* aylarını haram aylar olaraq qəbul edər, bu ayda nə müharibə edər, nə də əsir öldürərdilər... Bunlardan *Zilqədə, Zilhiccə* və *Məhərrəm* ayları arxa-arxaya gəlirdi. *Rəcəb* ayı isə bu üç aydan ayrı idi. Rəcəb ayının çıxmasını gözləmək məcburiyyətində qalmışdılar, ancaq son bir ay işgəncə və zülmü bacara bildikləri qədər artıraraq, demək olar ki, diri-diri öldürmüşdülər əsirləri.

5 ay davam edən dözülməz işgəncə və əziyyətlər...

İşgəncələrin başında intiqamçılar dururdu. Bunların da başında Məkkənin idarəçiləri vardı, təbii ki... Digər əzab verənləri bunlar yönləndirirdilər. Yaxınlarda özləri də İslama girəcəklərini, seçilmiş səhabələrdən olacaqlarını necə biləcəkdilər? İllərcə etdiklərinə görə göz yaşı tökəcək olan bu adamlar, indi müsəlmanların canını çıxarırdılar, onlara qan qusdururdular.

İşgəncələr tez-tez dəyişirdi, ancaq işgəncə edilənlər eyni qalırdı. Bu iki mübarək əsir ***dözülməz cəzalara dözürdülər***...

## ÜZÜM

İşgəncə və əziyyətlərin ən dözülməzi aclıq və susuzluq idi. Əsirləri ac və susuz saxlayaraq dinlərindən döndərəcəkdilər və ya ağladıb-sızladaraq yalvardacaqdılar. Amma onlar bütün bu əziyyətlərə dözürdülər. Əsirlərin bu dözümlülüyü dəli edirdi caniləri. Əslində ölməli idi onlar. Bu qədər vaxt aclıq və susuzluğa heç bir insan dözməzdi.

Amma...

Maviyə müşriklərin toplantı yerinə tələsirdi. İçəri girməyə icazə almadan, tələsik bir halda məclisə daxil oldu. İçəridəkilər elə əsəbi bağırdılar ki qadına.

- Nədir?

- Bəyim, ağam!

- Bura icazəsiz girməyə kim icazə verdi sənə?

- Avamçılığıma bağışlayın.

- Belə avamçılıq olar?

- Gördüklərim çaşdırdı məni..

- Belə çaşacaq dərəcədə nə gördün ki?

- Hübeyb, Hübeybi gördüm!

- O nə sözdü?

- Hübeybi gördüm deyirəm.

- Hübeyb sənin evində həbsdə deyilmi?

- Bəli, bizim evə həbs etmisiniz onu.

- Bəs yaxşı, bu nə deməkdir?

- Hübeybi üzüm yeyərkən gördüm!

- Nəəə?... deyə bağıraraq hamısı ayağa qalxdılar.

- Nə dediyini bilirsən?

- Çaşmısınız deyəsən, ele deyilmi?

- Yaxşı, bəs haradan tapıb o üzümü?

- Kim verib ona?

- Kim gətirib?

- Bilmirəm ağam, əlində bir üzüm salxımı gördüm və şoka düşdüm.

- Bu mövsümdə Məkkənin heç bir yerində üzüm tapılmaz ki!

- Mənim də şok olduğum iş elə budur!

- Bəlkə, səhv görmüsünüz?

- Uşağam mən?

- Bəlkə də, səhv görmüsən..

- Əlində bir salxım üzüm var idi deyirəm

- Ola biləcək bir iş deyil bu!

- Hər giləsini bismillahla qopardır, bismillahla yeyirdi.

- Üzümü haradan tapdığını soruşmadın?

- Üzüm yeyərkən gözlərimə inanmadım əvvəlcə

- Bəs sonra?

- Sonra da sizə doğru qaçıb gəldim.

- Yanılmısan.

- Niyə?

- Bu mövsümdə üzüm olmaz, ona görə!

- Onda gəlin, siz də görün!

- Düz deyirsən, ən doğrusu da budur.

- Haydı onda.

- Elə isə, siz toplantıya davam edin biz gedib baxarıq.

- Gecikməyin ha!

- Oldu.

Əbu Süfyan, Əbu Cəhil, Əbu Ləhəb, İkrimə, Safvan və Süheyl qoşuldular Maviyə qadına, onun arxasınca yönəldilər onun evinə tərəf. Tələsik yolu keçib Hübeybin əsir tutulduğu evə gəldilər.

Ora Maviyənin evi idi. Maviyə azad edilmiş cariyələrdən idi və çox zəkalı bir qadın idi. Özünü azad etmiş, hətta bir ev sahibi də olmuşdu.

- Bu nədir?

- Gözlərimə inanmıram.

- Hübel, eşqinə gördüklərimiz doğrudurmu?

- Lat,  Mənat, Hubel eşqinə, doğrudur.

- Amma, necə ola bilər?

- Mənə inanmırdınız, gördünüz?

- Mümkün deyil!

- Ola biləcək bir şey deyil!

- Ola bilməz!

- Aman Maviyə, heç kimsəyə demə.

- Ona görə sizin yanınıza gəldim də!

- Yaxşı, bəs necə izah edəcəyik bunu?

- Başa düşmədiyimiz bir şeyi necə başa salacayıq?

- Ən yaxşısı, özündən soruşaq.

- Onda ona qiymət vermiş olarıq.

- O da düzdür.

- Bəs indi nə edəcəyik?

- Ediləcək bir şey yoxdu!

- Hər şey ortadadır!

- Görməmək üçün kor olmaq lazımdır!

- Nə vaxtdan belədir bu adam?

- Necə yəni?

- Yəni çox gümrah görsənir, olduqca da sağlamdır.

- İşgəncə edilmədi buna?

- Necə yəni, işgəncə edilmədi? Elə işgəncələr verdik ki, günlərcə özünə gələ bilmədi.

- Çox sağlam görünür.

- Orasını bilmirəm. Bəlkə, əlindəki üzümü özünə göndərən, sağlamlıq da göndərib?!

- Sus, belə danışdığını bir daha eşitməyim!

- Sağlam göründüyünü siz dediniz.

- Hər nə isə, bundan heç kimə bəhs etmə, yaxşı?

- Gedək.

- Bəs onunla danışmayacaqsınız?

- Danışacağıq təbii ki... Danışacağıq...

- Nə vaxt?

- Yaxında!...

- İndi niyə danışmırıq?

- Sən bu işləri bilməzsən, qadın!

- Qoy, buna biz qərar verək.

- Tezliklə danışacağıq, Hübeybin də, Zeydin də işini bitirəcəyik.!

- Yəni?

- Kəs səsini sən!

- Bu qədər çox danışmağına necə icazə verdik?

- Onlara nəsə edəcəksiniz?

- Orası sənə aid deyil.

- Sən bu hadisədən heç kimə bəhs etmə, başa düşdün?

- Başa düşdüm...

Böyük bir maraq ilə gələnlər, böyük bir əsəbiliklə uzaqlaşdılar oradan.

Müaviyənin onlara yazığı gəlməyə başlamışdı. Amma əvvəllər onlara edilən işgəncələr onun da xoşuna gəlirdi. Ancaq Hübeyb evinə həbs edildiyi gündən bəri dəyişməyə başlamışdı haradasa itirdiyi insanlıq duyğularını sanki yenidən hiss edirdi.

Yenidən dönüb balaca pəncərədən Hübeybə baxdı. Namaz qılırdı Hübeyb. Üzündə nurani bir ifadə var idi. Sanki əsir deyildi, gəzməyə gəlmiş bir qonaq kimi rahat görünürdü. Heç bu günə qədər də qışqırıb-bağırmamışdı, dəli-dolu hərəkətlər etməmişdi. Namazda daha çox rahatlaşır və sanki başqa bir aləmə gedirdi. Elə ki, saatlarca seyr edə bilirdi onu. Ancaq onunla danışmağı, onu izləməsi qadağan edilmişdi.

Əsir bir adamdan niyə bu qədər qorxurdular görəsən?

## QIRILAN ZƏNCİRLƏR

Safvanın xidmətçisi təlaşla içəri girdi.

- Ağam, bəyim....

- Nə olub, bu nə təlaşdır?

- Yenə namaz qılır!

- Nəəə?

- Bir daha namaz qıldığını görməyəcəyimi demədim sənə?

- Mən nə edə bilərəm?

- Bərk bağla deməmişdim sənə?

- Bağlamışdım.

- Aha?

- Amma, açılıb!

- Başa düşmədim?

- Açılmışdı, ağam!

- Kim açıb bəs?

- İçəri heç kim girə bilməz!

- Bəs necə açılıb bu adam?

- Mən də buna çaşıb qalmışam.

- Açılıb deməzdim, açıblar!

- Qapını mən bağladım, açar da bircə məndədir. Heç kim girə bilməz ki, açsın.

- Bir də mən bağlayım, görək necə açılır.

- Yenə açılacaq.

- Hardan bilirsən?

- Nə qədər bağlayıb, qapını da bağladımsa, hər gələndə açılmış gördüm.!

- İndi görərsiniz! Düzgün bağlamırdınız, o da çırpınıb açırdı!

- Hər dəfə daha çox bərk bağlamışdım.

- Bəsdir!... Get görüm!...

Safvan, yanına iki köləsini də alaraq Zeydin saxlandığı evə gəldi. Qapını əsəbi halda təpikləyib açdı. Zeyd namazını bitirmişdi, dua edirdi. Zəncir də bir kənara atılmışdı. Bir anlığa nə deyəcəyini bilmədi.

- Beş vaxt namaz bəs deyilmiş kimi, daha da çox namaz qılırsan.

- Namaz Allahın əmridir.

- Sənə danış deyən oldumu?

- Söz soruşdun axı.

- Soruşmadım, sadəcə etdiklərini dedim. Kim gəlib əlini açır sənin?

- Kimsə gəlib açmır. Rəbbim lütf edir.

- İndi lap bərk bağlayaq, onda ağıllanarsan. Görək necə açırsan.

Həm iplə, həm də zəncirlə çox bərk bir şəkildə bağladılar Zeydi.

Tərpənəcək halı qalmamışdı. Safvan acıqlı-acıqlı baxırdı.

- Sən bunu necə qəbul edirsən, Safvan?

- Nə deməkdir bu?

- Sənin kimi bir adam, mənim kimi adamı necə bağlayır belə?

- !..

- Cavab vermirsən?

- Ən həssas yerimdən vurdun məni, Zeyd!

- Bizə bu cür düşmənçiliyin, kinin səbəbi nədir?

- Siz bizim böyüklərimizi öldürdünüz Bədirdə.

- Siz də bizimkiləri öldürdünüz, həm Bədirdə, həm də Uhudda. Ancaq biz sizə nə etmişik, Safvan? Söyləyə bilərsən? Zeyd olaraq, Hübeyb olaraq?

- !

- Bax, Safvan, səninlə çoxdan tanışıq. Biz Yəsribli olaraq, Hz. Muhamməddin (s.ə.s) peyğəmbər olduğuna inandıq, o da xaos içində olan Yəsribi Mədinəyi-Münəvvərə olaraq düzəltdi, sanki yenidən inşa etdi. İllər boyu davam edən döyüşlərimiz, intriqalarımız, problemlərimiz son nəticədə onunla barışmaqla bitdi. Bu qədər cəhalət və rəzillikdən onun sayəsində qurtulduq, Haqqa yönəldik.

Amma siz hələ də düşmənsiniz. Bizim gördüklərimizi niyə görmürsünüz? Safvan, niyə bu qədər inad edirsiniz?

- İnad deyil, qərarımızın qətiliyidir.

- Nəyə qarşı?

- Atalarımızın dininə qarşı, təbii ki! Biz sizin kimi dönük deyilik.

- Safvan, sənin kimi ağıllı, cəsur döyüşçü, uzaq görən bir adam necə olur ki, bütlərin və bütpərəstlərin arxasınca gedir?

- Bütləri tərk etmərəm mən. Sizin kimi dönük olmaram mən!

- Ah Safvan, ah! Bir də həqiqətə qulaq versən, bir dəfə də olsa ciddi-ciddi İlahi mesaja qulaq assan, inanıram ki, sən də müsəlman olacaqsan!

- Bu qədər vəz kifayətdir! Baxaq görək necə qılacaqsınız namazınızı?

Safvanın əsiri olan Zeyd yeməkdən-içməkdən kəsilmişdi. Səhərləri oruc tutur, gecələri də səhərə qədər namaz qılırdı. İndi gecələri də oruc tutmağa başladı. Yeməyə-içməyə verilən ərzaqlar yeyiləsi-içiləsi deyildi. Yəni, yemək üçün bütlər adına kəsilən ət gətirilirdi, içmək üçün də ancaq şərab verirdilər. Bunu yeyib-içməyəcəyinə görə, artıq gecə-gündüz oruc tuturdu.

Yenə də bir gün Safvan gəlmişdi. Zeydi belə halsız gördükdə çaşdı. Başqalarının onun barəsində "əsirini acından öldürdü", demələrindən qorxub soruşdu:

- Niyə bu hala düşmüsən, Zeyd?

- Necə gözləyirdin?

- O qədər ət göndərdim sənə.

- Bütlər adına kəsilən ətdən bir tikə belə ağzıma qoymayacağımı bilmirdin?

- Heç şərab da içməmisən ki?

- Şərab bizim dinimizdə haramdır.

- Belə etsən ölərsən.

- Haramla qidalanıb həyatda qalmaqdansa, ölmək yaxşıdır.

- Yəni bunlar çox əhəmiyyətlidir, Zeyd?

- Bəli, təsəvvür edə bilməyəcəyin qədər əhəmiyyətlidir!

- Heç su verməsəm?

- Sənin əsirinəm, bu an edə biləcəyim heç bir şey yoxdur.

- Yəni?

- Yənisi budur ki, ölərəm, amma haram yeyib-içmərəm!

- Təəccübləndirirsən məni.

- Təəccüb əvəzinə bir qədər düşünsən olmazmı?

- Nəyi?

- Olanları, İslamı, Qurani-Kərimi, peyğəmbərimizi (s.ə.s).

- Bəs sənin fikrincə mən nəyə görə səni əsir almışam? Əlbəttə ki, dediklərini düşünürəm. Düşündükcə də əsəb dolur içimə.

- Yox, Safvan, yox! Sən düşünmürsən, kor-koranə qarşı çıxırsan.

- İndi də təhqirə keçdin?

- Əsirəm mən, necə təhqir edə bilərəm səni? Ancaq Safvan, mən inanıram ki, nə vaxtsa sən bizim aramızda yer alacaqsan!

- Güldürmə məni. Mən heç bir zaman dönük olmaram.

- Əsil dönmək müsəlman olmamaqdır.

- Bunları daha əvvəl də danışmışdıq səninlə.

- Bəli, amma o zaman bu qədər ciddi qəbul etməmişdin məni.

- Bəs indi?

- İndi ciddi qəbul etdiyini görürəm.

- O mənim şanımdandır.

- O şanın xətrinə, mənə haram olan yemək və içmək göndərmə, Safvan!

- Yaxşı, Zeyd. Bundan sonra yeyib-içə biləcəyin şeylər göndərərəm.

- Uca Allahdan sənin üçün hidayət istəyərəm, Safvan!

- !

## BAXIB GÖRMƏK

Dərdləri də, vaxtları da tamamlanmışdı.

Artıq işgəncələr və əziyyətlər bitəcəkdi. Tam 5 ay idi ki, olmazın çətinliklərə, əziyyətlərə məruz qalmışdılar. Gördükləri işgəncələr, üzləşdikləri təhqirlər dayandırılmışdı artıq. İnsanlığa sığmayan, yaraşmayan vəhşiliklər göstərən bu insafsızların davranışlarında artıq fərqliliklər müşahidə edilirdi. Artıq, olduqca yaxşı və təmiz yeməklər verirdilər, hətta yeməklərin yanında çörək də verməyə başlamışdılar.

Bütün bunların bir səbəbi olmalıydı ki, onu da yaxşı başa düşürdü, mübarək əsirlər. Bu gün-sabah öldürəcəkdilər onları... Rəcəb ayı çıxmaq üzrə olduğuna görə, ölüm zamanları da yaxınlaşırdı.

Buna görə də onlarla nisbətən yaxşı davranırdılar.

Bu vaxta qədər evində əsir tutulan Hz. Hübeybin hal və hərəkətləri, davranışları, tez-tez oxuduğu Qurani-Kərim, qıldıqları namazlar Maviyəni cox təsirləndirmişdi. Əlindən gəlsəydi, əsir kimi davranmazdı ona. Amma ağaları tez-tez yoxlayırdılar.

Nəhayət, bir gün dözə bilməyib halını soruşmuşdu.

- Ey Hübeyb, bir şey istəyirsən?

- Xeyr, Maviyə, təşəkkür edirəm.

- Hər hansı bir şeyə ehtiyacın varmı?

- Bütlər adına kəsilmiş ətlərin yeməyini gətirmə mənə.

- Yaxşı, gətirmərəm.

- Su da təmiz olsun, dəstəmaz alıram, bilirsən.

- Yaxşı.

- Yəni, bizim inancımıza görə haram olan heç bir şey gətirmə.

- Gətirmərəm.

- Halal yemək və təmiz su gətirsən, məmnun olarıq.

- Narahat olma, sizin haram dediyiniz heç bir şey gətirmərəm.

- Çox təşəkkür edirəm.

- Başqa bir istəyin var?

- Əgər öyrənə bilsən, bizi öldürəcəkləri gündən bir neçə gün əvvəl xəbər et bizə.

- İnşallah, öldürməzlər.

- Öldürəcəklərini bilirəm, ancaq qabaqcadan deməyini istəyirəm.

- Olar Hübeyb, özün üçün istədiyin heç bir şey yoxdur?

- Yox Maviyə qadın! Rəbbim sənə də hidayət nəsib edər, inşallah. Bu cür pisliklər içində insanlığın üçün çox sağ ol.

- Hər şeyə görə təşəkkür edirsən.

- Şükür gözəldir, Maviyə…

Bax beləcə danışmışdılar bir gün. Arada ağalarına bildirmədən bir neçə dəfə danışmışdılar Hubeyblə. Onun belə danışıqlarını diqqətlə dinləmiş, İslam ilə tanış olmağa başlamışdı Maviyə qadın. Amma, açıq şəkildə edə bilmirdi bunu. Tam olaraq müsəlman olmamışdı, amma, bir şey də qalmamışdı.

Hübeybin simasında onun ***inandıqlarına inanmağa*** başlamışdı.

۞

Maviyə Hübeybin əsir olduğu otağın qapısına qədər gəldi. Pis xəbəri vermək üçün gəlmişdi. Amma, necə söyləyəcəyini bilmirdi. «*Sabah öldürüləcəksən*!» sözünü necə deyəcəkdi? Amma məcbur idi, çünki deyəcəyinə söz vermişdi.

Qapısının üstündəki kiçik deşikdən baxdı əvvəlcə. Hər zaman bu deşikdən yoxlayırdı onu. Yenə Qurani-Kərim oxuyurdu. O qədər gözəl oxuyurdu ki, bir başqa aləmə aparırdı insanı. Belə bir insanı necə edam edə biləcəkdilər? Necə qıyacaqlar, necə əl qaldıracaqlar ona? Belə bir vəhşiliyi, insafsızlığı necə həyata keçirəcəklər?

- Hübeyb, Hübeyb.

- !

- Səni çağırıram Hübeyb.

- !

Rəbbiylə birlikdə olan biri, bizi eşidərmi heç? Bir az daha möhkəm çağırmalıyam. Heeeey, Hübeyb!

- !

- Daha bərk çağırsam eşidəcəklər.

- Heeey, Hübeyb...

- Məni çağırdınız?

- Nəhayət, səsimi eşitdiniz.

- Nəsə bir şey olub?

- Olub! Həm də çox mühüm!

- Xeyirdir?

- Nə xeyir? Şərdir, həm də necə şər!

- Nə olub?

- Olmadı, amma olacaq.

- Başa düşdüm.

- Nəyi?

- Bizim öldürülmə günümüz gəlib çatıb yəqin!

- Necə bildin?

- Bunu bilmək üçün kəramətə ehtiyac yoxdur ki!

- Bəli, Hübeyb. Bunu sənə necə deyəcəyimi bilmirəm, amma sabah...

- Bu qədər tez, demək!

- Sabah edam edəcəklər sizi!

- Sizi dediyinə görə…

- Bəli, Zeydi də edam edəcəklər.

- Rəbbimizə onunla birlikdə qovuşacağıq, desənə.

- Qorxmursan?

- Biz qorxunu aşdıq, Maviyə!

- Mən də aşmaq istəyirəm.

- Səndə də bunun əlamətlərini görürəm. Yaxın vaxtlarda aşacaqsan hər cür qorxunu.

- İnşallah!

- Demək, sabah, hə!

- Təəssüf ki, sabah.

- Elə isə, səndən bir istəyim olacaq, Maviyə

- Nədir?

- Bir bıçaq və ya ülgüc.

- Nə edəcəksən onları?

- Qorxma, Maviyə. Canıma qıymaq fikrim yoxdur. Dirnaqlarımı kəsəcəyəm. Sonra da təmizlik etmək istəyirəm. Ölüm təmizliyi… Rəbbimin hüzuruna hər baxımdan təmiz getmək istəyirəm.

- Başa düşdüm. Təmizlik sizin ilk prinsiplərinizdən biridir.

- İslamın prinsipi, daha doğrusu, əmri. Verə bilərsən bunları?

- Təbii ki, göndərərəm. Məni burada görməsinlər.

- Çox təşəkkür edirəm, Maviyə. Sənin yaxşılıqlarını unutmayacağam heç vaxt.

- Mən də sənin Quran oxuyub, namaz qılmağını.

- Hübeyb əmi, bax, mən gəldim.

- Xoş gəldin, balam. Necə gəldin bəs?

- Bu gün xəlvət gəlmədim, anam göndərdi. Aaaa, sənin əllərini açıblar!

- Açdılaraa!

- Sənə bunları anam göndərdi. Nə edəcəksən bıçaqla ülgücü?

- Dırnaqlarımı tutub, təmizlik edəcəyəm.

- Əllərini buna görə açdılar?

- Bəli.

- Nə etdin, nə dedin ki, əlini açdılar?

- Mən heç bir şey demədim.

- Niyə açdılar bəs?

- Öldürüləcək olan birinin son istəyini yerinə yetirdilər!

- Yəni öldürəcəklər səni?

- Bəli.

- Evin ətrafına bu qədər adam, onun üçün gəliblər?

- Hər halda ...

- Amma sən çox rahat görünürsən.

- Eləmi?

- Ölümündən qorxmursan?

- Xeyr.

- Necə ola bilər?

- Çünki öləndə gedəcəyim yer buradan daha gözəldir.

- Bir yerə getməyəcəksən ki, öldürəcəklər səni!

- Öləndə bir yerə gedir insan. Hər ölən mütləq bir yerə gedir.

- Hara?

- Axirətə.

- Ora haradır?

- O biri aləm!

- Başa düşmədim?

- Yəni əbədi aləm. Ya cəhənnəm, ya da cənnət.

- Cənnət yaxşı yer olmalıdı.

- Bəli, cənnət müsəlmanların gedəcəyi yerdir və dünyadan çox yaxşıdır.

- Səni öldürməsələr olmazmı?

- Məni öldürməyə qərar verdiklərinə görə, demək ki, olmaz.

- Niyə öldürəcəklər səni?

- Mən onların düşməniyəm!

- Atamın da?

- Bəli.

- Atam da sənin düşmənindi?

- Bəli.

- Niyə düşmənsiniz?

- Uzun hekayədir.

- Dost ola bilməzsiniz?

- Çox çətin.

- Dost olsanız, onlar səni öldürməzlər.

- Bu halda dost ola bilmərik.

- Niyə?

- Səni necə başa salacağımı bilmirəm.

- Sən izah elə, mən başa düşərəm.

- Biz əvvələr çox pis idik. Zəifləri əzərdik. Hamının haqqını yeyərdik. Uşaqları və qadınları döyər, kiçik uşaqları diri-diri torpağa basdırardıq. Canımızın istədiyi hər şeyi edər, heç kimin halına acımazdıq.

- Sonra?

- Sonra Uca Allah bizə içimizdən bir Peyğəmbər göndərdi. Bizə doğrunu göstərən Peyğəmbərə inandıq və doğrucul insanlar olmağa başladıq.

- Ahaa?

- Doğruluğu istəməyənlər, Allahı və Peyğəmbərini qəbul etməyənlər müsəlmanlara düşmən oldular. Müxtəlif işgəncələr və əziyyətlər etdilər. Müsəlmanları məmləkətlərindən çıxmağa məcbur etdilər. Onlar da gəlib Mədinədə yurd saldılar. Biz də onlarla qardaş olduq. Ancaq Peyğəm-

bərimizi tanımayanlar yenə də üzərimizə gəldilər. Aramızda böyük müharibələr oldu.

- Atam da onlardandı?

- Bəli, onlardan.

- Atamla danışsan, ona bir şeylər başa salsan, öldürməzlər. Elədir?

- Atanın mənə qulaq asacağını düşünürsən?

- Doğrudur, dinləməz. Atam başqalarının sözünə qulaq asır.

- Kimdir başqaları?

- Bütün pis adamlar, müşriklər, bütə inananlar.

- Sus! Eşidərlər, səni də öldürərlər.

- Eşidirlərsə, eşitsinlər. Anamı da çox pis döymüşdülər..

- Niyə?

- Səninlə yaxşı davrandığı üçün!

- Ana?

- Keçən dəfə mənə üzüm vermişdinaa.

- Həə?

- Bunu haradan tapdın deyə soruşaraq, dəli oldu hamısı. Sonra, atam və pis adamlar anama əsəbiləşdilər. Qışqırıb bağırdılar.

- Nə dedilər bəs?

- "Bu uşağı bir daha onun yanına buraxmayın".- deyib qışqırdılar. Kaş ki, bir az böyük olardım.

- Neyləyərdin?

- Səni buradan qurtarardım.

- Atana nə cavab verərdin?

- Ona deyərdim ki, olanları görməyəcək qədər korsan? Bu cür gözəllikləri anlamayacaq qədər ağılsızsan? Müsəlmanlar çox yaxşı insanlardır. Onlardan niyə əl çəkmirsiniz?

- Onlar da inanardılar səncə?

- İnanan adam tələ qurar, əmi?

- Başa düşmədim.

- Sizi tələyə salaraq tutmuşdular. Qarşınıza kişi kimi çıxmağa cəsarətləri yox idi ki!

- Allah səni qorusun, balam! Sən çox yaxşı uşaqsan. Böyüyəndə onlar kimi pis olma. Yaxşı, canım?

- Yaxşı, əmi. Mən onlar kimi deyil, sizin kimi olmaq istəyirəm.

- Bir yandan danışır, bir yandan da dırnaqlarını kəsirdi. Uşaq da dayanmadan suallar verir, onu buradan qurtarmağın yollarını axtarırdı.

Digər tərəfdə, Maviyə qadın oturduğu yerdən sıçrayaraq qəflətən içəri qaçdı. Bir yandan da böyük bir qorxu ilə söyləyirdi: «Mən nə etdim! Əlinə bıçaq verib, ülgüc verib uşağı necə göndərdim o adamın yanına? Birdən öldürsə?» Hübeybin əsir olduğu otağın qapısına atdı özünü. Balaca deşikdən içəri baxdı.

- Aman Allahım!

- !

Elə fəryad etdi ki, içəridəkilər də qorxdular. Qapının deşiyindən baxıb Hübeybə yalvarmağa başladı.

- Uşağa bir şey eləmə, xahiş edirəm!

- Nə edəcəyimi gözləyirsən ki?

- Əsirsən də sən. Sabah öldürüləcəksən. Uşağı girov götürə bilərsən və yaxud intiqam ala bilərsən.

- Məndən belə bir şey gözləyirsən?

- Cani, qatil, pis adam deyilsən. Amma yenə də qorxdum.

- Qorxma, Maviyə! Uşaq öldürmərik biz.

- Uşağıma dəymədiyinə görə sənə təşəkkür edirəm, ey Hübeyb.

- Sadəcə uşağı deyil, heç kimsəni haqsız yerə öldürmərik biz. Döyüşlərdə, müharibələrdə olur ölüm və öldürmə işləri. Həm də bu qədər yaxşılıq etdin mənə. Narahat olma, uşağına heç bir şey olmaz.

- Ayaq səsləri var. Mən gedirəm, siz də diqqətli olun.

Maviyə səssiz-səssiz hərəkət edərək, bir kənarda gizləndi. Düz üç nəfər gəlirdi. Biri yoldaşı idi. Digər ikisi də Məkkənin ən şərli adamlarından idi. Heç kim sevməzdi onları. Ancaq qorxularından da səslərini çıxarmazdılar. Qapını hirslə açıb içəri girdilər.

- Vaxtın çatdı Hübeyb. Sabah öldürüləcəksən!

- Sizdən fərqli bir şey də gözləmirdim heç.

- Sən burada neynirsən? Necə girdin içəri? Qorxmursan bu adamdan?

- Yox, qorxmuram!

- Sabah öldürüləcək olan adamın yanına girərlər heç?

- Nə edib bu adam sizə? Niyə öldürürsünüz?

- Başından böyük işlərə baş qoşma sən. Düz ananın yanına!

- Nolar, öldürməyin onu. Çox yaxşı bir insandı o.

- Ananın yanına get dedim, eşitmədin?

- Öldürməyin, öldürməyin!

- Atın bunu bayıra!

Uşaq ağlayaraq anasının yanına qaçdı. Qolundan tutub bayıra atdılar. Böyüklərin bu işlərindən çox narahat olurdu...

- Sabah öldürüləcəksən!

- Bilirəm.

- Haradan bilirsən?

- Bir az əvvəl dediniz!

- Bir şey söyləyəcəksən?

- Allah birdir, Peyğəmbər haqqdır!...

- Hələ də?

- Hər zaman, həmişə.

- Edama aparanda da görək belə deyəcəksən?

- Allah bilir.

Adamlar hirslənərək necə gəlmişdilərsə, eləcə də geriyə qayıtdılar...

## HİDAYƏT

Böyük bir hüznlə addımlayırdı yolu.

Yıxılmış, çökmüş kimi bir halı var idi.

Sanki, bütün yaxınlarını itirmişdi. Yazıq, məzlum bir sifəti var idi.

- Maviyə.

- !

- Heeey, Maviyə!

- !

- Səni çağırıram!

- Nə var?

- Bu nə qaş-qabaqdır?

- Heç bir şey yoxdu.

- Sənə səsimizi eşitdirmək üçün üç dəfə qışqırdıq. Yaxşı, heç nə yoxdursa, niyə dalğınsan?

- Soruşmayın, heç soruşmayın.

- Nə olub?

- Dərdim böyükdür.

- Danış görək.

- İçim-içimi yeyib bitirir.

- Bu qədər böyük nə dərdin ola bilər?

- Bizim evdə əsir tutulan mədinəli vara ha...

- Hübeybi deyirsən?

- Bəli.

- Nə olub ona?

- Sabah öldürüləcək!

- Gəbərsin!

- O nə sözdü?

- Necə yəni, Bədirdə öldürdüklərinin intiqamı alınmasın?

- İntiqamdan sizə nə? Qul-kölə deyilsinizmi siz?

Nə əlaqəsi var indi bunun?

- Ağalarınıza kor-koranə bağlanmısınız.

- Nə edək yəni?

- Sizin ağlınız yoxdu heç? Hansınızı insan yerinə qoyurlar sizin? Çox zaman ac və susuz gəzirsiniz. Tez-tez də döyülürsünüz, elə deyilmi?

- Nə edək, biz köləyik!

- Heç bir insan kölə doğulmaz. Sizin ruhunuz da kölədir? Ətrafınıza baxmırsınız? Olanları başa düşmürsünüz?

- Nə olub ki?

- Sizin anlamağa da, görməyə də niyyətiniz yoxdur, deyəsən!

- Sən nəyi başa düşmüsən, görmüsən bəs?

- Hübeybi gördüm. Hübeybi dərk etdim! Ömrüm boyu görmədiklərimi Hübeybdə gördüm!

- Hübeybi hamımız görürük. Amma sən onda nəyi görmüsən, nəyi başa düşmüsən?

- Əvvəlcə insanlıq görmüşəm, sonra da...

- Bəli, sonra?

- Necə desəm bilmirəm, bir başqalıq, fərqlilik gördüm onda.

- Nə kimi?

- Bu qədər vaxtdan bəri bizim evdə əsir tutulub. Bir gün olsa belə qışqırıb-bağırmadı, bir gün olsa belə dəlicəsinə hərəkətlər görmədim onda. Böyük bir təslimiyyət gördüm.

- Təslimiyyət?

- Bəli.

- Kimə, nəyə?

- İnandığına təbii ki!

- Başqa bir çarəsi var bəyəm? Əsir bir adam başqa neyləyə bilər ki?

- Onun bədəni əsirdir, amma ruhu yox! Başa düşürsünüz məni?

- Nə deməkdir indi bu?

- Maddi cəhətdən böyük çətinlik içində ola bilər, ancaq ruhən çox rahatdır.

- Başa düşmədim?

- Necə başa salacağımı bilmirəm ki?

- Doğrudan, o üzüm hekayəsi düzdür?

- Siz də eşitdiniz, deməli.

- Eşitməyən qalmadı ki! Məkkədə Hər kəs bundan danışır. Doğrudur bu?

- Doğru olmasaydı bu qədər danışılardı heç?

- Hər danışılan doğru olmur ki!

- Haqlısan. Hər danışılan doğru olmaz təbii ki. Ancaq bu doğrudur.

- Yəni üzüm məsələsi doğrudur?

- Doğrudur. Ancaq hekayə və ya nağıl deməyin buna.

- Nə deyək bəs?

- İşin əsli nədirsə, onu deyin.Yəni...

- Davam et, yəni...

- Yəni, bir hadisənin doğru olub-olmadığını aydınlaşdırdıqda, doğruya yönəlmək və inanmaq lazımdır!

- Doğru nədir bəs?

- Hübeyb ilə Zeydin tutduğu yol!

- Sus ay qız! Eşidərlər, parçalayarlar hamımızı.

- Eşidirlərsə, eşitsinlər. Mənim gördüklərimi onlar da gördülər. Mən bir kölə olaraq nə isə başa düşürəm, onlar niyə başa düşməsinlər?

- Kim bilir, bəlkə də, başa düşmək istəmirlər?!

- Sizdən belə bir şey eşitmək necə də yaxşıdır.

- Deyəsən, haqlısan Maviyə. Ağlımız olsun ki, cəhənnəmlik işlərdə istifadə olunmayaq! Bədən cəhətdən köləyik, heç olmasa ruhən azad olaq!

- Və biz də inanaq!

- Nəyə?

- Onların inandıqlarına.

- Bəli, onların inandıqlarına. Onlardan daha xeyirli əsir görməmişəm mən. Onun tutduğu yolun şəksiz-şübhəsiz doğru olduğuna and içə bilərəm.

Maviyə və onun üç rəfiqəsi artıq hidayət nuru ilə nurlanmağa başlamışdılar.

İndiyə qədər olanları, baş verənləri düşündülər, götür-qoy etdilər, araşdırdılar və nəhayət, doğru yola yönəldilər.

Ancaq bu fəaliyyətləri gizli edirdilər, təbii ki.

Kim bilir, daha neçə dənə Maviyə vardı aralarında?!

İslam ilə qucaqlaşmaq üçün, kim bilir, daha kimlər gözləyirdi İslam şəfəqini?!...

Kim bilir?

## TƏSLİMİYYƏT

Səhər olmuşdu...

Hər gecənin bir səhəri vardır. Bu gecənin səhəri də gəlib çatmışdı. Ancaq bu səhər digər səhərlərə oxşamırdı. Səhər həmin səhər idi, amma başqa cür bir səhər idi.

Səhərin erkən vaxtında müşriklər evin qabağına yığılmışdılar. Hər birinin əlində iti qılınclar, uzun mizraqlar və ucları şiş oxlar vardı. Hər birinin gözləri alov saçırdı, dilləri də iti mizraq kimi, alicənab və nəzakətli ürəkləri qanadırdı. Bu nəzakətli ürəklərdən biri də Maviyə idi. Müsəlman olmuşdu Maviyə qadın. Hidayətə çatmışdı, haqqa və əsalətə yönəlmişdi. Ancaq imana gəlməyini məcburən gizli saxlayırdı. Özü ilə birlikdə çox yaxın sirdaşları, tanışları, bir neçə dostu da müsəlman olmuşdu.

Səhər tezdən qapısına yığılan canilərə nifrətlə baxdı. Əlindən heç bir şey gəlmirdi. Sadəcə dua edib ağlayırdı. Bunu da gizlincə edirdi, təbii ki.

Bir, iki, üç... 8-10 nəfər içəriyə daxil oldu. Düz Hübeybin əsir tutulduğu otağa doğru yönəldilər. Otağın qapısını qəzəblə təpikləyərək qırdılar və yıxdılar bir kənara. Qılınclarını, mizraqlarını Hübeybin üzərinə doğru tuşladılar və onu divara bağladıqları zəncirləri qırdılar. Qılınc və mizraqlarla itələyərək onu bayıra çıxartdılar.

Hübeybi yaxından görən vəhşilər əsəblə, dəlicəsinə qışqırırdılar...

Kimin nə dediyi bilinmirdi. Ancaq söydükləri rahatca başa düşülürdü. İntiqam atəşindən, kinlərinin alovundan qançır olmuş gözlərini Hz. Hübeybin üzərinə dikdilər. Bu gözlərin saçdığı nifrətə heç kim dözə bilməzdi. Ancaq Hz. Hübeyb fərqli idi. O, sanki iman fəvvarəsi idi. Bu böyük səhabə bir mələk kimi məsum görünürdü. Çox rahat və sakit idi. Üzərində ən kiçik bir qorxu və ya təlaş işarəsi görmək mümkün deyildi. Canilərə elə baxırdı ki, ***ürəyi olanlar*** dözə bilməzdi bu baxışlara.

Vəhşi, qudurmuş müşriklər ovunu ələ keçirmiş yırtıcı canavarlar kimi əsiri edam etmək üçün Tənim istiqamətinə doğru yönəldilər. Bu səhnəyə daha dözə bilmədi Hz. Maviyə (r.anhə) qadın. Ürəyi getdi, yerə yıxıldı.

Digər tərəfdə də eyni vəhşiliklə Hz. Zeydi aparırdılar.

❁

***Tənim...***

Məkkədən (Mədinə istiqamətində)15 km uzaqlıqda bir yer...

Tənimdə insan qaynayırdı...

Bu günə qədər belə qarışıqlığa ev sahibliyi etməmişdi Tənim. İynə atsan, yerə düşməzdi.

Kimlər yox idi ki?

Bütün Məkkə oraya toplaşmışdı. Məkkə yaxınlığındakı qəbilələr də gəlmişdi. Qarışıqlıq getdikcə artırdı.

Bu gün burada indiyə qədər heç görmədikləri, eşitmədikləri bir hadisə baş verəcəkdi.

İki əsir burada edam olunacaqdı. Ancaq bu edamın çox fərqli bir xüsusiyyəti var idi.

Əvvəla bu, intiqam edamı idi. Məkkə müşriklərinin müsəlmanlardan alacaqları bir intiqam.

Sonra da, bir göz dağı idi bu.

Qorxunc bir qorxutma idi.

Dəhşət saçmalı idi.

Sonra da müşrik məntiqinə görə, böyük bir zəfər idi bu.

Bir az sonra icra ediləcək olan intiqam səhnəsini izləmək üçün bütün hər kəs buraya toplaşmışdı. Böyük bir həyəcan ilə gözləyirdilər.

Və iki əsir göründü... İki mübarək əsir...

Hər ikisini də qılınc və mizraqların əhatəsində, böyük bir nifrət izdihamı altında gətirirdilər.

İki əsir görünən kimi qarışıqlıq düşdü.

- Yaşasın Hubel!

- Ölüüüm!

- Yaşasın Mənat

- Ölüm olsun sizə!

- Yaşasın Lat!

- Yaşasın Məkkə.

- Gəbərsin müsəlmanlar!

- Gəbərdin iksini də!

- Müsəlmanlara ölüm!

- Yazığınız gəlməsin bunlara!...

- Vurun!...

- Öldürün!...

- Bunlar yaşasa, bizə yaşamaq haramdır!...

- Bədirin də intiqamını alın!...

- Bədirin qatillərini gəbərdin!...

- Uhud qatillərinə ölüm!...

- Vurun!... Öldürün!... Gəbərtin!...

- !...

Belə bir məntiqdən, düşüncə tərzindən mərhəmət gözləmək sadəlövhlük olardı. Mərhəmət deyilən müqəddəs və mübarək duyğudan məhrum idi onlar. Mərhəmət dənizinə dala bilməyənlər, qəddarlıq bataqlığında batmışdılar. Necə də cəsarətlə pislik, iyrənclik saçırdılar hər tərəfə...

- İnsanlıq deyilən şeydən əsər-əlamət yox idi bunlarda. Bütün xüsusiyyətləri ilə birlikdə insanlığı itirmişdilər. Bu qədər kor və zalım bir düşüncə tərzindən heç mərhəmət gözləmək olar?

Hər iki əsir bütün hücum və təhqirlərə baxmayaraq sanki qılınc və mizraq meşəsi arasında gəzirdilər. Biri-birinə gülümsəyərək baxırdılar, xüsusi bir yerdə görüşmək üçün sözləşirdilər sanki. O qədər rahat, o qədər sakit bir halları vardı ki, cəlladlarını dəli edirdilər. Elə qəribə bir

təslimiyyət var idi və elə vüqarla gedirdilər ki, olacaqları bilməyən biri, bunlar **sevgilisi ilə görüşməyə gedən iki sevgili** sanardı.

Kim bilir, bəlkə də, elədir.!

- Zeyd!

- Hübeyb!

- Bu gedişimizin hara olduğunu bilirsən?

- Bilirəm, Hübeyb, bu gediş Allahadır!

- Bəli, qardaşım! Şəhadət yolu ilə Allaha doğru gediş-dir bu!

- Rəbbimizə nə qədər şükür etsək azdır. Ya Rəbbi, bizə də şəhadət nəsib et!!!

- Şükürlər olsun Rəbbimizə.

- Qorxursan?

- Qorxudan Allaha sığınıram!

- Mən də hər cür qorxudan Allaha sığınıram.

- Onda indidən təbrik edirəm.

- Mən də!

- Şəhadətin mübarək olsun Zeyd!

- Şəhadətin mübarək olsun Hübeyb!

Zalımlar bu qədər qısa danışıqlarına belə imkan vermirdilər. Fısıldaşaraq danışırdılar. Pıçıltılarına belə dözə bilmirdilər. Bir-birindən uzaqlaşdırıb, mizraq və qılınclarla dürtərək ölüm meydanına doğru yönəltdilər, apardılar əsirləri.

İndi hər kəs nəfəsini tutub saxlamışdı, baş verənləri böyük bir maraqla təqib edirdilər. Bir yandan da intiqamlarının alınması üçün qəribə bir vəhşiliklə zövq alırdılar.

Düşmənlər Hübeyb üçün dar ağacını hazırlamağa başladıqda, hər kəs bütün diqqətini oraya yönəltmişdi. Bu arada o da Zeyd ilə yenidən danışmaq fürsəti tapdı.

- Allah bizimlədir.

- Bəli, Allah bizimlədir.

- Allah hər şeyi görür, qardaşım.

- Bəli, Allah hər şeyi görür.

- Elə isə, səbir et, qardaşım.

- Hər şeyin başında səbir durmur?

- Bəli, hər şeyin başı səbirdir.

- Səbir ipinə sarıl.

- Səbir köynəyini geyinək, tövhid sarığını sarıyaq.

- Səbir və salamatlıqla yolun açıq olsun, Hübeyb!

- Səbir və salamatlıqla yolun açıq olsun, Zeyd!

- Şəhadətə qardaşım...

- Şəhadətə dostum!...

Olduqca dərin qazılan çuxura quru və uzun ağac gövdəsini dikdilər. Yaxşı möhkəmləndirərək yenidən yoxladıqdan sonra da Hübeybi çəkib ora apardılar. Elə vəhşicəsinə hərəkət edirdilər ki, bunları görən heç bir insan onlara insan deməzdi. Qorxuya salaraq dinlərindən döndərmək istəyirdilər əsirləri...

Amma əsirlər ölümü çoxdan aşmışdılar, ötüb keçmişdilər, başqa bir aləmin qapısını açmışdılar artıq!

Ölümü aşanlarda ölüm qorxusu olmazdı ki! Amma, bunu anlaya biləcək şəxslər yox idi orada. Bu xüsusiyyətləri kor olmuşdu. Korlar heç bir şey görməz axı. Onların görmədiklərini görənlərini isə, ümumiyyətlə görə bilməzdilər.

## DAR AĞACINDAKI ŞƏHADƏT

İki mübarək səhabənin edam edilməsi üçün qurulan dar ağacının yanına qədər aparılan Hübeyb elə bir mətanətlə irəliləyirdi ki, müşrikləri az qala dəli edirdi. Bir yandan onu təhqir edərək əzab verirdilər, bir yandan da qışqırıb bağırırdılar. Çox pis halda əziyyət verirdilər Hz. Hübeybə. Bu ağrılı-acılı mənzərəni ürək ağrısıyla və göz yaşları ilə seyr edən Zeyd bütün gücü ilə hayqırmağa başladı.

- Zalımın zülmü varsa, məzlumun da Allahı var! Zalımlar cəhənnəmə, Hübeyb cənnətə. Yolun açıq olsun qardaşım. Bir azdan mən də gələcəm. Şəhadət edirəm ki, Allah birdir və yenə şəhadət edirəm ki, Hz. Muhamməd Mustafa (s.ə.s) Allahın qulu və rəsuludur.

- Rəbbim Allahdır, peyğəmbərim də Hz. Muhamməd Mustafadır (s.ə.s).

Hübeybin də belə cavab verdiyini eşidən müşriklər onların hər ikisini dəyənəklərlə vurmağa başladılar. Bu hadisə nəticəsində əməlli-başlı çaxnaşma baş verdi, dəhşətli bir gurultu qopdu.

- Vurun!

- Gəbərdin!

- Yazığınız gəlməsin!

- Öldürün!

- İntiqam!

- Qana-qan!

- İntiqam!

- Ölümə-ölüm!

- Asın onları!

- Vurun... Qırın... Gəbərdin... Parçalayın...

Vurulan zərbələr və işgəncələr o qədər davam etdi ki, artıq zərbə vuranlar və işgəncə edənlər də yoruldular. Zərbələrə məruz qalaraq işgəncə görənlər isə, çox çətinliklə ayaq üstə dururdular! Müsəlmanlıq qürurunu əzməmişdilər, bütün gücləri ilə dözmüşdülər. Müşriklərin ən insafsız işgəncələri qarşısında belə diz çöküb yalvarmamışdılar, inanclarından aldıqları güclə ayaq üstə dayanmağa müvəffəq olmuşdular.

Bunlara dözmək hər adamın işi deyildi.

Yenidən min bir düyün ataraq, min bir fənd işlədərək Hübeybin əllərini arxasına bağladılar. Sonra da qurduqları dar ağacından asmaq üçün bir kötüyün üzərinə çıxartdılar. İpi onun boynuna keçirərkən hamı səssiz-səmirsiz seyr edirdi. Bir az sonra kötüyə bir təpik vurulacaqdı və Hübeyb ipdə sallanıb qalacaqdı. Amma onun üzündə qorxudan heç bir iz yox idi. Bütün camaat, edam meydanına yığışan hər kəs belə bir mətanət qarşısında çaşıb qalmışdılar.

- Sizdən son bir istəyim var. Ölümə məhkum edilən adamın son istəyi qəbul edilir. Buna görə son bir şey istəyirəm.

- Nə?

- Ölmədən əvvəl iki rükət də olsa, namaz qılmaq istəyirəm!

- Namaz dedin?

- Bəli, sadəcə iki rükət!

- Yaxşı, açın qılsın.

Hübeybin əlini açdılar. Heç bir hadisə olmayıbmış kimi, elə oradaca namaza başladı. Böyük bir zövqlə iki rükət namazını qıldı.

Haradan biləydi ki, onun sonuncu dəfə namaz qıldığı bu yerdə bir neçə il sonra məşhur Tənim məscidi inşa olunacaqdı. Bu məscidin bir adı da Hz. Aişə məscidi olacaqdı.

Hübeyb namazını qılarkən orada iştirak edən hər kəs böyük bir çaşqınlıqla, təəccüblə ona baxırdı.

Arxa sıralarda, onların nəzərindən kənar bir yerdə isə Maviyə qadın ağlayırdı. Çünki o artıq müsəlman olmuşdu. Maviyə deyil, bundan belə Hz. Maviyə (r.a) deyə anılacaqdı. Amma hal hazırda heç bir şeyə gücü çatmırdı. Göz görə-görə bir müsəlmanın edam edilməsi qarşısında ağlamaqdan başqa heç bir şey edə bilmirdi.

- Bu qədər qısa namaz qıldığını ilk dəfə görürük, ey Hübeyb.

- Vallahi, əgər ölümdən qorxaraq namazı uzatdığımı zənn etməyəcək olsaydınız, bu namazımı uzadar və çoxaldardım!

- !

Müşriklərin nursuz sifətlərinə zərbə kimi vurulan bu cavab onları bir dəfə də dəli etdi. Yenidən min bir düyün vuraraq Hz. Hübeybin əllərini arxasına bağladılar və onu quru kötüyün üzərinə çıxartdılar. Yağlanmış ipi boynuna keçirtdilər. Sonra da qarşısına keçib, böyük bir zəfər qazanmış qəhrəmanlar kimi baxmağa başladılar.

- Ey Hübeyb, sən bizdən son istəyini istədin. Biz də icazə verdik. Namazını qıldın. İndi də bizim səndən son bir istəyimiz olacaq.

- Nədir o?

- Sənin yaşamağın!

- Başa düşmədim?

- İslamiyyətdən dön, səni sərbəst buraxaq!

- Məni təhqir edirsiniz siz?

- Nə təhqir, dinindən dön, sərbəst buraxaq səni.

- Bu heç vaxt ola bilməz. Belə bir şeyi mənə təklif etmək, mənə olunacaq ən böyük təhqirdi.

- Əgər dönməsən, asıb öldürəcəyik səni.

- Bilirəm, görürəm və yaşayıram.

- Artıq yaşamayacaqsan.

- Allahın dediyi olacaq.

- Dinindən dönsən, həm sərbəst qalacaqsan, həm də aramızda böyük bir mövqeyə sahib olacaqsan. Haydı, dön dinindən.

- Xeyr, əsla! Hətta dünya nemətlərinin hamısı mənim olsa, mənə verilsə, yenə də dinimdən dönmərəm!

- Lat və Uzzaya and olsun ki, əgər dinindən dönməsən, səni öldürəcəyik.

- Onda nəyi gözləyirsiniz? Mən Rəbbimə qovuşmaq istəyirəm. Ölüm Allah yolunda olacaqsa, öldürülməyin mənim üçün heç bir əhəmiyyəti yoxdur!

- Lat və Uzzanı ucalt!

- Lat və Uzza rədd olsun. Uca olan yalnız Allahdır və onun Rəsuludur!

- Daha nə danışdırırsınız bunu?

- Lat və Uzza haqqı üçün vurun!

Bir anda bütün oxların hamısı birdən vıyıldadı. Ardınca mizraqlar və sonra da qılınclar...

Yaşasın Hubel deyən vururdu, yaşasın Lat deyən vururdu, yaşasın Mənat deyən vururdu, yasaşın Uzza deyən vururdu, yaşasın bütlərimiz deyən vururdu. Bəziləri də, ən böyük Hubeldir, şanın uca olsun Lat, ən böyük Mənatdır, Uzza xətrinə, -deyə bağırırdılar.

Üzərinə çıxardıqları kötüyü aşırtmadılar. Bir anda öldürmək istəmirdilər. Beş aydır çəkdirdikləri bəs deyilmiş kimi, indi də belə bir işgəncə ilə, yavaş-yavaş öldürəcəkdilər.

Əllərinə keçən bütün silahlardan, atdıqları oxlardan, vurduqları mizraqlardan və qılıncların hamısından istifadə etdilər. Qulaqları yırtılmış, burnu parçalanmışdı. Ətində ox batmayan heç bir yer qalmamışdı. Hər tərəfi qırılıb tökülmüşdü və dəhşətli bir şəkildə qan axırdı. O hala gəlmişdi ki, artıq nə danışa, nə də hərəkət edə bilirdi. Vurulan

ox, qılınc və mizraqlar onun hissiyyatı qarşısında təsirini itirmək üzrə idi...

Yanına biri yaxınlaşdı. Dinindən döndərməyin əsil vaxtı idi.

- Məni eşidirsən, Hübeyb?

- !

- Əgər eşidirsənsə, başını tərpət!

Güclə hiss olunacaq şəkildə başını tərpətdi. Bu cür zülümdən sonra yaşadığına görə hamı çaşıb qalmışdı. Müşriklərin zehniyyəti yenə də səhnədəydi.

- Əgər dinindən dönsən, səni götürüb müalicə etdirərik, nə deyirsən?

- Yox, -sakitcə dedi.

- Yaxşı, Hübeyb, bir sualım da var. İnandığın Allahın və Peyğəmbərinin xətrinə doğru de. Sən indi evində arvad-uşağının içində sağ-salamat olmağını, sənin yerinə Peyğəmbərinin asılıb öldürülməsini istəməzdinmi?

- Xeyir, heç vaxt!

Hardasa canı çıxmış birindən, belə sərt bir etiraz, oradakıları bir neçə addım arxaya atdı.

- İnandığım Allah və Peyğəmbərimin xətrinə doğru deyirəm, mən evimdə sağ-salamat oturarkən Hz. Muhəmmədin (s.ə.s) ayağına bir tikanın batmasına belə dözə bilmərəm, razı olmaram! Bu can, O cana minlərcə dəfə fəda olsun!..

- !!!

Orada iştirak edən, bu cavabı eşidən hər kəs dəhşətə gəldi, şoka düşdü. Ölüm ayağında olan birinin nümayiş etdirdiyi belə bir inad, belə bir mətanət qarşısında bəzi ölülər artıq dirilməyə başladılar.

Bunlardan biri də Səid b. Əmiri idi. Ağlamağa başlamışdı Səid. Maviyə qadın isə, onsuz da ağlamaqdan həlak olmuşdu.

Kim bilir, daha neçə-neçə Səid və neçə-neçə Maviyə vardı onların arasında?..

Kim bilir?. .

Kimlərinsə oyanmağı üçün, kimlərinsə ölməyi lazım idi, deyəsən!

- Daha nəyi gözləyirsiniz, öldürün artıq bunu!

Atılan mizraq və oxların zərbəsiylə Kəbəyə doğru dönəndə: «Üzümü Kəbəyə çevirən Rəbbimə Həmd olsun! Həmd olsun O Allaha ki, üzümü özünün, Peyğəmbərinin və möminlərin razı olduqları Kəbəyə yönəltdi!» -deyə bildi. Bunu eşidən zalımlar onu tutub güclə başqa tərəfə çevirdilər. Bu səfər də "Siz mənim yönümü və üzümü qiblədən çevirdiniz, amma Allah (hansı tərəfə dönsəniz, Allahın Qibləsi) oradadır!" mənasındakı, Bəqərə surəsinin 115-ci ayəsini oxudu. Dalınca da, «Allahım! Əgər mən Sənin qatında xeyirli bir qulamsa, üzümü Qiblənə, Kəbəyə çevir!» -deyə dua etdi. Uca Allah da duasını qəbul edərək, üzünü Kəbəyə çevirdi. Müşriklər nə qədər çalışdılarsa da, artıq üzünü başqa tərəfə çevirə bilmədilər.

Qurtulmaq üçün deyil, Kəbəyə yönəlmək üçün dua edirdi!...

Atılan oxlar, vurulan mizraqlar və batırılan qılınclar altında Hz. Hübeyb bütün gücündən istifadə edərək, müşriklərin eşidə biləcəyi bir səslə qışqırdı:

- Müsəlman olaraq öldürüləcək olsam,

Vurulub hansı yanım üstə düşürəmsə, düşüm,

Vallah, heç bir şey vecimə də deyil.

Çünki bunların hamısı O İlahi Zatın uğrundadır.

Bu dağılan, tar-mar olan cismimi,

Əgər istəsə, O, feyzə çatdırar.

Özünün belə çətinliklə eşidəcəyi bir səs tonu ilə bu sözləri də demişdi:

Bir çox qəbilələrin, qadın, qız, oğul, uşaq, hamısının başına toplanmış olduqlarını...

Özünün, asılmaq üçün uzun bir ağac gövdəsinə yaxınlaşdırıldığını...

Bağlı olduğu üçün, hər kəsin özünə qarşı istədiyi kimi düşmənçilik və işgəncə etdiyini...

İslam düşmənlərinin mizraqla onun bədəninin ətini yırtıb-deşdiklərini, dözülməz işgəncələr verdiklərini, artıq yaşama ümidinin qalmadığını...

Küfür və ölüm arasında qalmış olduğunu, ancaq ölümün İslamdan dönməkdən daha asan gəldiyini, heç bir zaman dinindən dönməyəcəyini...

Gözlərinin yaşla dolmasına baxmayaraq, müsəlman izzətinə görə onların qarşısında göz yaşı tökmədiyini...

Gec-tez öləcəyi halda, ölümdən heç çəkinmədiyini. .

Ancaq Axirət atəşindən qorxduğunu..

Düşmənlərə əsla boyun əymədiyini və əyməyəcəyini. ..

Səbirsizlik göstərmədiyini…

Yönünün, qayıdışının Allaha olduğunu… Necə inanırsa, elə yaşayacağını, elə də öləcəyini… ürəyində söylədi.

Sonra da müşriklərin pis sifətlərinə qarşı belə hayqırdı:

- Allahım!

Onların hamısını məhv et!

Topluluqlarını dağıt!

Bir-bir canlarını al!

Və onlardan heç birini sağ buraxma!

Bir az duruxdu. Sonra da bu duanı etdi:

- Allahım!

Burada düşmən üzündən başqa bir üz görmürəm!

Barı, Peyğəmbərimizə (s.ə.s) salamımı Sən çatdır!

Allahım! Sən bizə Rəsulunun risalətini təbliğ etdin. Səhər də bizə ediləni o Rəsuluna təbliğ et, çatdr!

Əs-Səlamu Əleykə ya Rəsulallah!

Qurtulmaq üçün dua etmirdi o.

Çünki, bilirdi ki, qurtuluşa nail olmaq, məhz verilmiş əmanəti imanlı bir şəkildə sahibinə təslim etməkdir. Elə indi də bunun davasını edirdi, bunun uğrunda mübarizə aparırdı. Bu necə ola bilər? deyə soruşanlara, bəlkə də, bundan əsrlərcə əvvəl bu hərəkəti ilə belə hayqırmaq istə-

mişdi: “Könlümüzdə kök atıb bitməsi lazım olan şey kök atıb bitdikdən sonra, o əqidə elə pöhrələyər, elə yetişər ki, artıq, gözlər başqa bir şey görməz, qəlblər də ondan başqa bir şey dərk etməz. Canlar o cana fəda olmaq üçün can atar. Canlar o canda yenidən canlanar!”

- Danışdırmayın artıq!

- Vurun Lat xətrinə.

- Vurun Mənat xətrinə.

- Vurun, öldürün!

- Bədirin intiqamını alın!

- Vurun!

Xalqının seçilmişlərindən, öndə gedənlərindən biri hündür bir yerə çıxıb bütün gücünü əsəbinə verərək elə hayqırdı ki, xalq hövsələdən çıxdı.

- Heeeeyy, məni eşidin! Bədirdə və Uhudda atalarınızı, qardaşlarınızı, uşaqlarınızı öldürən qanlı qatil, cani adam bax burada bağlanıb, gəbərməyi gözləyir. Rəhm etməyin ona. Vurun, gəbərdin. Atalarınızın və hətta bütün əqrəbalarınızın, Bədirin və Uhudun intiqamını alın. Vurun, parçalayın!. .

Bir yandan bağırırdılar, bir yandan da vəhşi kimi vururdular. Belə ki, Hübeybin vücuduna o qədər ox və mizraq batırmışdılar ki, qılınc vurulacaq yer qalmamışdı.

Son nəfəsini verərkən, yenə də müşriklərə eşitdirməyə calışaraq pıçıldadı:

- Mən şəhadət edirəm ki, Allah təkdir və yenə şəhadət edirəm ki, Hz. Muhamməd Mustafa (s.ə.s) Onun qulu və Rəsuludur! Allahu Əkbər! Allahım, Allah!...

Biri yaxınlaşıb kötüyü yıxdı. Hübeyb ipdən asılı qaldı. Hamısı birdən cumub son dəfə mizraqlamağa başladılar. Elə vəhşicəsinə batırırdılar ki, mizrablar Hübeybin bədəninin bir tərəfindən girib o biri tərəfindən çıxırdı. Böyük-kiçik qalmadı, hamı payını aldı bu qətliamdan. Hətta vəhşilikdən ağıllarını elə itirmişdilər ki, alçaq canilərdən bəziləri uşaqları da bu məsələyə qarışdırmışdı.

Nəhayət, vəhşilər vəhşiliklərini vəhşicəsinə nümayiş etdirdilər və Hz. Hübeybi faciəvi şəkildə qətl etdilər...

Hübeyb şəhid oldu.

Allah yolunda dar ağacında şəhid olan ilk müsəlman Hz. Hübeyb olmuşdu.

Bədirdə müşriklər üzərinə fırtına kimi əsən Hz. Hübeyb şəhid olmuşdu.

Uhud döyüşündə Peyğəmbərimizin ətrafında pərvanə kimi dolanan Hz. Hübeyb...

Hz. Hübeyb, müşriklərə qarğış edərkən onların hər biri qorxularından dəli kimi hərəkətlər etməyə başlamışdılar.

Bu qarğışdan sonra heç birinin sağ qala bilməyəcəyini zənn etmişdilər, böyük bir qorxuya qapılaraq özlərini yerə atmışdılar. Hətta işin vahiməsini anlayan böyüklər kiçikləri itələyib yerə yıxaraq qalxmamağı tapşırmışdılar.

Hər şeyləri batil olan bu adamların qarğışdan qurtulmaq etiqadları da batil idi. Qarğış anında yerə sərilənlərə qarğışın təsir etməyəcəyinə inanırdılar Hətta bundan başqa hər hansı bir qarğışla üzləşdikdə də, özlərini tez yerə

atırdılar, bununla da qarğışın onlardan yan keçəcəyini hesab edirdilər .

İndi də kimisi qorxu ilə özünü yerə atmışdı, kimisi də balacaları yatırmışdı. Bir qismi də nə edəcəyini bilməyib özünü ağacların arxasına atmışdı. Bəziləri də qulaqlarını tutmuşdu, qarğışları eşitməsinlər deyə. Eşitməsələr qarğış onları tutmaz, deyə zənn edirdilər.

Bu hadisə əsnasında Məkkə müşriklərinin bütün böyükləri, seçilmişləri orada idi. Kimin ağlına gələrdi ki, bunlardan bir qisminə uca Allah yaxın vaxtda hidayət nəsib edəcək və onlar müsəlmanların liderlərindən olacaqlar...

Orada iştirak edənlərdən kimə hidayət nəsib olmuşdusa, İslamı qəbul etdikdən sonra, bu hadisə ağıllarına gəldikcə, dəli-divanə olurdular...

Hz. Zeydin növbəsi idi...

Onun üçün də başqa bir dar ağacı hazırlamışdılar.

Onun da işini bitirmək, bu işi mümkün qədər tez qurtarmaq istəyirdilər. Bunun üçün də tələsik Zeydin üstünə yüyürdülər.

Hz. Hübeybə nə etmişdilərsə, Zeydə də eynisini etdilər. Hec nəyə baxmayaraq bir müsəlman idi o; inandığı kimi yaşayırdı, inandığı kimi də ölürdü.

- Son arzumu yerinə yetirməyinizi istəyirəm!

- Son arzun nədir?

- İki rükət namaz!

- Hübeyb kimi?

- Bəli, Hübeyb qardaşım kimi!

- Yaxşı.

Edam ediləcək yerdə iki rükət namaz qıldı.

Namazdan sonra da, edam etmək üçün düzəltdikləri quru və uzun ağac gövdəsinə sıx bir şəkildə bağlandı. Onun da göstərmiş olduğu mətanət qarşısında, müşriklər yenidən şoka düşdülər, dəhşətə gəldilər.

- Ey Zeyd, gəl, sonradan çıxmış olan bu dinindən dön. Bizim dinimizi qəbul et ki, səni sərbəst buraxaq.

- Xeyr, heç vaxt!

- Bax, Zeyd, gördün ki, dostun Hübeyb faciəvi şəkildə öldürüldü. Sən bir az ağıllı hərəkət edib canını qurtar. Dinindən dön və qurtul.

- Xeyr, vallah, mən heç bir zaman dinimdən dönmərəm.

- Dönməsən, öləcəksən!

- Sizin kimi vəhşilərdən mərhəmət gözləyəcək qədər axmaq deyiləm.

- Öləcəksən dedik, Zeyd.

- Siz də öləcəksiniz!

- Amma sən indi öləcəksən.

- Ölüm Allah yolunda olduqda şərəf sayarıq biz. Daha nə gözləyirsiniz? Allah birdir, Peyğəmbər haqdır. Rəbbim Allahdır! Dinim İslamdır! Peyğəmbərim Hz. Muhamməd Mustafadır (s.ə.s)...

Bunu elə hayqırmışdı ki, aləm yenə də bir-birinə dəymişdi.

- Nə danışırsınız hələ də?

- Vurun!

- Öldürün!

- Gəbərdin!

Və kim nə tapdısa, kimin əlinə nə keçdisə, onunla vurmağa başladı. Ox, qılınc, mizraq, daş…

Hübeyb həzrətlərinə etdikləri kimi edirdilər, tezliklə ölməsini istəmirdilər. Əvvəlcə əzab çəkdirəcək, qorxudacaqlar, bəlkə də, beləliklə dinindən döndərməyi bacaracaqdılar. Buna görə də öldürücü zərbələr deyil, dözülməz zərbələr vururdular, əzab verirdilər Zeydə…

Bir az əllərini saxladılar, yenidən dinindən dönməsi üçün sual verdilər, təklif etdilər. Aldıqları cavab yenə eyni oldu. Bu dəfə də müəyyən yerlərini hədəf alıb ox yağışına tutdular. Qulaqları yırtıldı. Burnu parçalandı. Qolları ağaca mismarlandı. Ayaqları və əzələli ətləri parça-parça edildi. Ancaq Zeyd «Allah» dedi və başqa bir şey demədi. Onun bu təslimiyyəti dəli-divanə edirdi müşrikləri.

Haradasa, son nəfəsini verəcəkdi. Əbu Süfyan işarə edib ox atmalarını saxladı. Son bir ümidlə Zeydə yaxınlaşdı. Zeyddən əsər-əlamət qalmamışdı sanki. Parçalanmışdı, cəsəd halına gəlmişdi. Belə vəziyyətdə olan birinə belə müşrik lideri əlindəki qılıncla əziyyət etməyə çalışırdı. Canlı olduğu ancaq tərpənməyindən hiss olunurdu. Bunu fürsət bilib son bir ümidlə soruşdu:

- Dinindən dön və qurtul.

- Xeyr, -ölümcül vəziyyətdə dedi Zeyd.

- Dinindən dönsən, aramızda mövqe sahibi olacaqsan.

- Xeyr, mənə Allah və Rəsulu bəsdir!

- Elə isə, Allahın və Rəsulunun xətrinə doğrusunu söylə, indi yanımızda sənin yerinə Peyğəmbərinin olmasını, onun boynunun vurulmasını, sənin də arvad-uşağının içində sağ-salamat olmağını istəməzsən?

- Xeyr, deyə kükrədi Zeyd.

Bu cavabı eşidən hər kəs, başda Əbu Süfyan olmaq üzrə, ona yaxın olanlar, böyük bir qorxu ilə bir neçə addım geri sıçradılar. Zeyd yenə hayqırdı:

- Vallah, mən ailəmin içində sağ-salamat oturarkən, canım-gözüm Peyğəmbərim Hz. Muhamməd Mustafanın (s.ə.s) nəinki sizin yanınızda, hətta indi olduğu yerdə belə bir tikanın ayağına batmasına, onu incitməsinə razı olmaram! Bu can o cana fəda olsun artıq! Bu can ona fəda olsun!

Başda Əbu Süfyan olmaqla, hər kəs bu bağlılığa, bu fədakarlığa çaşıb qaldı. Hətta Əbu Süfyan belə demək məcburiyyətində qaldı: «Mən, insanlar arasında Hz. Muhəmmədin (s.ə.s) əshabələrinin, Məhəmmədi (s.ə.s) sevdiyi kimi, heç kimsənin heç kimsəni sevdiyini nə gördüm, nə də eşitdim!»

Hamısı birdən irəliləyərək, qəfil hücumla Zeydi şəhid etdilər. Bir yandan mizraqla və qılıncla bədənini parçaladılar, bir yandan da üstünə çıxartdıqları kötüyü çəkib kəndirin ilgəyini Zeydin boğazına sıxaraq boğulmasına səbəb oldular.

Zeyd də şəhid oldu.

Bədir və Uhud döyüşlərində olmazın cəhdlər göstərən Hz. Xalid b. Əbu Bükeyr ilə ixvan (qardaş) olan Hz. Zeyd şəhid olmuşdu.

Hz. Zeyd Rəbbinə qovuşmuşdu…

Hər ikisi də ayrı-ayrı, ancaq eyni mənaya gələn yalvarışlar, dualar etmişdi. Beləliklə də, möminlərə yaraşan bir şəkildə əmanəti əmanət sahibinə təslim etmişdilər. İç aləmlərində belə dilə gətirmişdilər duyğularını:

Mənim görüş günümdür bu gün!

Rizası üçün döyüşdüyüm Rəbbimin qatına qəbul edilmə günümdür.

Bütün müvəqqəti qapıların bağlandığı, həqiqətin verə biləcəyi ən böyük mükafata məni çağırdığı gündür bu gün!

Yer üzü bir qarış yer qalmayacaq qədər insanla dolu olsa, bir tükün qırxda biri qədər şübhə belə, yaxınlaşa bilməz mənə.

Şübhəsiz ki, mən **ürvətül-vüsqaya** sığınmışam.!

Şübhəsiz ki, Onun yolundayam!…

Bu gün mənim üçün bir bayram günüdür.

Xəbis, qara ruhlu sifətlərin sevinci mənə haqlı olduğumu yenidən bir dəfə də bildirməkdən başqa nəyə yarayar?

Allahım!. .

Gördüyüm üzlər, sənə qarşı üsyan bayrağını açmış qaranlıq üzlərdir.

Səcdəsiz alınlar dalğalanır qarşımda!

Həbibindən uzaqda, mömin qardaşlarımdan uzaqdayam!

Dostlarıma həsrətəm...

Onların səcdə izləriylə parlayan üzlərinə həsrətəm!

Salamımı, sevgimi və darıxdığımı çatdır onlara...

Allahım!

Qatında çətinlik yoxdur.

Bizə olunanı çatdır sevgili Rəsuluna.

Amma bundan şikayətçi olmadığımızı da çatdır.

Onun üçün min canım olsa, minini də sevə-sevə verəyimi də çatdır Ona!

İslam tarixində bu şəkildə asılaraq şəhid edilənlərin ilkləri Hz. Hübeyb ilə Hz. Zeyd idilər. Onlardan əvvəl belə bir ölüm olmamışdı.

Hər cür işgəncə etmişdilər, amma əqidələrindən döndərə bilməmişdilər, sonda da şəhid etmişdilər.

Özlərini Allaha və Rəsuluna tam mənası ilə təslim edən bu iki şəhid, ölümlə nəticələnən əzab-əziyyətlərinin heç bir saniyəsində belə əqidələrini itirməmişdilər, sevgi ilə getdikləri tikanlı yola təmkinli bir şəkildə atmışdılar özlərini. Allahın hər zaman özləri ilə birlikdə olduğunu həm bilirdilər, həm də açıq-aşkar hiss edirdilər. Necə də olsa, O, hər şeyi görürdü, hər şeyi bilirdi. Həmişə Onun dediyi olurdu, Onun dilədiyi olurdu. Onun yoluna şəhid olaraq getmək lazım gəlirsə, buna da inandım deyən hər müsəlman bu yola sevərək atılırdı. Onlar da elə etmişdilər...

Bədənləri dar ağacından asılı qalsa da, ruhları sevgililərin sevgilisinə doğru uçub getmişdi artıq!

Olanda da belə olmalı idi iman!

İnananda, belə inanmalıydı müsəlman!

Hübeyb kimi... Zeyd kimi... Asim kimi...

Və digərləri kimi...

İnanan insan inancını quru bir mədəniyyət olaraq başa düşməməlidir, mənimsəməməlidir... Çünki, inanc bir həyat tərzidir, dünya görüşüdür. Yaşamaq modelidir. Nəyə, nə qədər və necə inanırsa, onu o qədər və o şəkildə yaşamalıdır...

Bunun parıldayan ulduzlarından ikisi də Hz. Hübeyb ilə Hz. Zeyd idi. Uca Allahın hüzuruna son dəfə dünya halı ilə çıxmaq üçün icazə istəmişdilər qatillərdən. İndiyə qədər heç bir şey istəməmişdilər, amma indi ilahi hüzura çıxmağın eşqi və diləyi ilə dilə gəlmişdilər. Namazla tanış ola bilməyənlərin bunu anlamaları, başa düşmələri əsla mümkün deyildi. Amma onlar görüşmüşdülər sevgililəri ilə. Səcdə vəsiləsi ilə görüşmüşdülər, səcdədə qovuşmuşdular Ona. Daha sonra da edam olunaraq şəhidlik qapısından keçmişdilər, əbədi olaraq qovuşmuşdular uca sevgili ilə. Rəblərinin qarşısına açıq alınla, təmiz qəlblə və parlaq ruhları ilə qovuşmuşdular.

Müşriklərin həm məclislərində, həm də evlərində o məşhur qarğış arası kəsilmədən səslənirdi, dalğalanırdı. O qədər eşidilirdi ki, hamısının ağzının dadı-duzu qaçmışdı, hər birinin başının üstünü böyük bir qorxu almışdı. Nə zaman və nə üçün bir yerə toplaşsalar, günün ilk söhbəti bu qarğış olurdu. Buna görə də doğru-düzgün nə əylənə bilir-

dilər, nə də rahatca ticarət karvanları ilə yola çıxa bilirdilər. Ən qoçaqları, ən igidləri, hətta ən qorxmaz cəngavərləri belə qarğış qorxusuna tuş gəlmişdilər və bayıra cıxa bilmirdilər...

Müşriklər topluluğu üsyan və düşmənçiliklərini bacardıqları qədər nümayiş etdirərək, Məkkədəki kin-küdurət dolu yuvalarına qayıtdılar.

Orada qılınclı və mizraqlı müşriklərdən ibarət bir neçə nəfərlik qrupu şəhid cəsədlərinə keşik çəkmək, üçün saxladılar.

Bəs, nə üçün?

Yoxsa, cəsədlərdən də qorxurdular? Bəlkə də, qorxmağa başqa səbəbləri var idi?

Bəlkə də, hamıya ibrət olsun deyə saxlamışdılar orada qalanları. Cəsədlər orada asılı qalsın və gəlib-keçənlər də qorxudan ürpərsinlər deyə?

Kim bilir?

Bəlkə də, vəhşiliklərini nümayiş etdirirdilər?

Kim bilir?

## MƏLƏYİN GƏTİRDİYİ SALAM

Peyğəmbərimiz (s.ə.s) əshabı ilə oturub söhbət edərkən, birdən-birə duruxdu.

Onu dəhşətli bir vahimə bürümüşdü.

Belə bir vəziyyətdə səhabələr necə hərəkət edəcəklərini bilirdilər. Başlarını önlərinə əyərək böyük bir sükünət və səbirlə gözləyirdilər.

Bir qədər sonra bu hal keçdi və Peyğəmbərimizin (s.ə.s) üzündə ağrı-acılı bir ifadə, bir hüzn gördülər.

«***Onun üzərinə də salam olsun! Onun da üzərinə salam olsun***!...» -buyurdu Peyğəmbərimiz (s.ə.s). Səhabələr maraqla ona baxıb soruşdular:

- Ey Allahın Rəsulu! Bu salamla kimin salamına cavab verdiniz?

- «***Hübeyb və Zeyd qardaşımızın salamına cavab verdim. Müşriklər qardaşlarımızı şəhid etdilər***!»

Peyğəmbərimiz (s.ə.s) Hz. Hübeybin asılacağı halda iki rikət namaz qılmasını Allahın izni ilə görmüşdü, onun son arzu olaraq namaz qılmasından razı qalmışdı, onu «***Şəhidlərin ulusu***» deyə adlandırmışdı və onun barəsində «***O, cənnətdə mənim qonşumdur***!» buyurmuşdu.

Peyğəmbərimizi (s.ə.s) və səhabələri böyük bir hüzn sardı. Hübeyb və Zeyd üçün dua etdilər.

Rəci hadisəsində 7 nəfər Rəcidə, 1 nəfər Mərruzahranda və 2 nəfər də Məkkə yaxınlığındakı Tənimdə dar ağacından asılaraq və əzab verilərək şəhid edildilər. Bu xəyanət, bu xain vəhşilik 10 şəhid ilə nəticələnmişdi.

Peyğəmbərimiz (s.ə.s) heç vaxt itirmədən Zübeyr b. Avvam, Miqdad b. Əsvəd və Əmr b. Üməyyəni böyük şəhidlərin mübarək bədənlərini gətirmələri üçün Məkkəyə göndərdi.

Gecə-gündüz, isti-soyuq demədən yol gedən Zübeyr, Miqdad və Əmr 14-15 gündə güclə çata bildilər Məkkəyə. Kimsənin gözünə görünməməyə çalışaraq Tənim mövqeyinə doğru gəlib çatdılar. Hz. Hübeyb həm ağacdan asılmışdı, həm də əl-qolu möhkəm-möhkəm bağlanmışdı. Demək olar ki, bütün bədəni parça-parça olmuşdu. Quruyub qalmışdı. Şəhid edildiyi gündən bu yana 15 gün keçdiyi halda, nə Hübeybin, nə də Zeydin mübarək cəsədlərindən heç bir pis qoxu gəlmirdi. Mübarək şəhidləri aparmağa gələnlərdən biri tez-tələsik ipləri açdı, digərləri də cəsədi kürəyinə qoydu və tez-tez uzaqlaşmağa başladılar. Bir az kənarlaşdıqdan sonra qayıdıb Zeydin nəşini də götürəcəkdilər. Sonra da hər ikisini dəvələrinə yükləyib Məkkə yoluna çıxacaqdılar.

Ancaq, Zeydin nəşini götürmək üçün geri qayıdanda nə görsələr yaxşıdır? Müşrik zehniyyət ölülərin başına növbətçi qoymuşdu? Əlləri silahlı bir qrup cani onların arxalarınca gəlirdi. Hübeybi incitmədən yerə qoydular və tez uzaqlaşdılar oradan. Bir o yana, bir bu yana qaçaraq hədəfi çaşdırdılar, onlara yaxın bir təpəciyin üstünə çıxıb,

daşların arasında gizləndilər. Bir yandan özləri gizlənirdilər, bir yandan da olanları izləyirdilər.

Sağa-sola dəli kimi qaçan müşriklər axtardıqlarını tapmadıqları üçün əsəblərindən yeri qazmağa, təpikləməyə, başlamışdılar.

- Hara getdi bunlar?

- Doğrudan, hardadı bunlar?

- Bu qədər adam, 2 nəfəri gözdən qaçırtdıq!

- Lənət olsun...

- Buralarda bir yerdə gizləniblər.

- Bir daha axtaraq!

Hər tərəfi təkrar-təkrar axtardılar. Tapmayıb yenə bir yerə toplaşdılar.

- Qorxularından deyəsən, ta Mədinəyə qədər qaçıblar!

- Kaş ki, elə olsa.

- Elədir, elədir...

- Yaxşı, bəs Hübeybin cəsədi hara getdi?

- Doğrudan, hara yoxa çıxdı cəsəd?

- Bir an, sanki, şey...

- Nə?

- Torpaq yarıldı, içinə çəkdi onu!

- Yaxşı görək!

- Elə şey olar?

- Mən də tam əmin deyiləm!

- Bəs?

- Amma torpaq uddu onu!

- Necə?

- Bilmirəm, bilmirəm...

- Torpaq uddu deyirsən, axı!

- Bəli, torpaq yarıldı və Hübeyb içinə girdi sanki!

- Yaxşı, bəs Zeyd hara getdi?

- O da elə!

- Necə elə?

- Torpaq bağrına basdı onu da!

- Buna kim inanar səncə?

- Mən də çətinliklə inanıram, üstəlik də özüm gördüyüm halda!

- Nə cavab verəcəyik indi?

- Doğrudan, bizi keşikçi qoyublar.

- Hər şeyi olduğu kimi söyləyək.

- Yəni, deyək torpaq yarılıb... .

- Torpaq yarılıb Hübeybi də, Zeydi də içinə çəkdi!...

- İnanarlar bizə?

- İnanmaları vacib olan şeylərə inanmayanlar buna heç inanmazlar!

- Nə demək istəyirsən sən?

- Məni düşünmə, sən onları düşün.

- Sus, eşitsələr dərimizi üzərlər bizim!

- Haqlısan.

- Nə edəcəyik indi biz?

- Fərqini gördünüz?

- Nəyin?

- İki həftədən bəri asılı qalan cəsədlər, heç bir dağılma və qoxusu yox idi!

- Doğrudan, heç bir iy yox idi!

- Başa düşməyimiz lazımdır artıq!

- Hər şey gözümüzün qabağında baş verdi.

- Anlamalı, düşünməli və...

- Və?

- Nə bilimeee!

- !

- Nə yalan deyim dost, çox təsir etdi mənə.

- Mənə də.

- Mənə də elə.

- Adamlar edam ediləcəyini bilə-bilə nə qədər də sakit idilər.

- Namazlarına nə deyək?

- Hər zaman oxuduqları Quranlarına?

- !

Müşriklər əvvəlcə Hübeybin, sonra da Zeydin mübarək cəsədlərini parçalayacaqlarına qərar verdikdə Zübeyr, Miqdad və Əmr diksinmişdilər. Nə olursa-olsun, buna izin verməyəcəkdilər. Bir yandan bu şəhid qardaşları üçün dua edərkən, bir yandan da ölənə qədər çarpışmağa söz verirdilər biri-birinə.

Ancaq...

Ancaq müşriklər dəli kimi hərəkətlər edib, dəli kimi bağırdıqda, bütün diqqətlərini oraya verəndə çaşıb qalmışdılar. Çünki Hübeybi torpaq udmuşdu.

Eynən Asimi udduğu kimi.

Torpaq uddu Hübeybi!

Torpaq uddu Zeydi!

Eynən Asimi udduğu kimi!. .

## ONUN ÜÇÜN

Münafiqlər... Ah münafiqlər və münafiqlər...

Rəci faciəsi xəbəri Mədinəyə çatıb yayılanda, münafiqlər nə gəldi danışmağa başladılar.

Elədir, münafiq hər yerdə münafiqdir.

- Yazıq oldu, doğrusu...

- Boş-boşuna öldülər.

- Yazıq oldu bu işgəncə ilə öldürülənlərə.

- Arvad-uşaqlarının yanına sağ-salamat dönə bilmədilər.

- Peyğəmbərlərinin elçiliyini də yerinə yetirə bilmədilər.

- Qurbanlıq qoyunlar kimi boğazlanıb getdilər.

- Yazıq oldular.

- Çox heyf oldular.

Münafiqlər-içi başqa, çölü başqa insan qalıqları, artıqları...

Müsəlman kimi görünür, amma İslama qarşı gəlirdilər.

Hər cür vəziyyətdən öz mənfəətlərinə uyğun istifadə etməyi bilirlər. Bir tərəfdən müsəlmanam deyirlər, digər tərəfdən də İslam əsaslarına görə yaşamazlar.

İçləri  başqa, çölləri başqadır onların.

Beləliklə, insan artıqları qarşısında, həqiqətən iman edərək, Allah və Rəsulu yolunda canlarından keçənləri, baş qoyanları uca Allah (c.c.) belə tanıdırdı.

«... ***Həmçinin, insanlar arasında eləsi vardır ki, Allahın rizasını qazanmaq üçün özünü fəda edər. Allah qullarına çox şəfqətlidir***!» (Bəqərə surəsi, ayə 207)

۞

Onların fədakarlıqları mükafatsız qalmamalıydı, heç qalmadı da...

Rəci hadisəsində seçilmiş səhabələrdən 10 nəfərin şəhid edilməsinin qarşısında, Peyğəmbərimiz (s.ə.s) tez-təcili müşavirə məclisini topladı. Vaxt itirmədən o bölgə üzərinə səfər edilməsinə qərar verdi.

Beləliklə, Peyğəmbərimiz (s.ə.s) Hz. Abdullah b. Ümmü Məktumu Mədinədə öz yerinə vəkil təyin edərək kiçik bir səriyyə ilə yola düşdü. Səriyyədə uzaq başı 200 adam olardı.

Xainləri şübhələndirməmək üçün, onları qəflətən yaxalamaq üçün, guya Şam tərəfə gedirmiş kimi çıxdı Mədinədən. Bir az getdikdən sora ildırım sürəti ilə yönünü dəyişdirərək, sürətli bir şəkildə Rəci bölgəsinə gəldilər.

Ancaq hec bir yerdə, heç kimi tapa bilmədilər!

Peyğəmbərimizin (s.ə.s) kiçik də olsa, bir dəstənin başında hərəkətə keçdiyini eşidən düşmənlər dağlara, dərələrə, mağaralara sığınıb gizlənmişdilər. Kişi kimi meydan müharibəsinə çıxa bilməyən alçaqlar, alçaqcasına tələ qurmağı yaxşı bacarırdılar. Bu hər zaman belə olmuşdur.

Peyğəmbərimiz (s.ə.s) 200 nəfərlik dəstəsi ilə ta Məkkə yaxınlığına qədər getmişdi, ancaq heç bir güc onların qarşısına cıxa bilməmişdi. İstəsəydi, Adal və Qarə qəbilələrinə hücum edə bilərdi, onlara əlaltdan kömək edənlər də cəzalarını verə bilərdi. Ancaq Peyğəmbərimiz (s.ə.s) və müsəlmanlar özlərinə bir hücum olmadıqda döyüşə girməzdilər. Xüsusən də sivil xalqa zərər verilməsini istəməzdilər. Döyüşə başlayana qarşılıq vermək isə ciddi bir döyüşçüyə yaraşan iş idi.

Tam 14 gün davam edən bu axtarış səfəri əsnasında bəzi qəbilələrlə müxtəlif mövzularda razılaşmalar edilmişdi və hər hansı bir vuruşma olmadan Mədinəyə qayıtmışdılar.

Bu səfər ilə səhabələrin və Peyğəmbərimizin (s.ə.s) tək olmadıqları sübut olunmuşdu.

Həmçinin, bu seçilmiş şəhidlər üçün bütün möminlər dua etmişdi, onların hər birini xeyirlə anmışdılar.

Onların geridə qalan ailə üzvlərinə qarşı da lazımi təminatlar, yardımlar təşkil olunmuşdu, hər birinə böyük bir incəliklə, xüsusi bir diqqətlə sahib çıxılmışdı, şəhid ailələri tək-tənha qalmamışdılar.

❁

Hər şeyin əsli məhəbbətdə gizli idi…

Məhəbbət dənizinə dalmayanlar, məhəbbəti dərk edə bilməyənlər uca Allahın bu misilsiz ehsanından məhrum qalacaqlar.

Səbir tikanlarından elə gözəl güllər pöhrə verirdi ki, tikanlar unudulurdu, güllər qalırdı yaddaşlarda. Təkcə güllər qalırdı...

Nə üçün yaşadığının şüurunda olan, nə üçün öldüyünün şüurunda da olar.

Belə bir şüurda olmayan, bunun üçün ölə bilməz!

Şəhidlər isə...

Onun üçün yaşamışdılar. Onun üçün ölmüşdülər!

Ona inanmışdılar. Onun bütün əmrlərinə **"inandıq və itaət etdik"** demişdilər. Onun yolunda canlarını fəda etmişdilər, baş qoymuşdular...

Ona heyran qalmışdılar, Ondan başqasına yoldaş olmamışdılar.

Onun tərəfində olmaq, Ondan qeyrisinə əyilməmək, ancaq belə igidlərin bacara biləcəyi bir iş idi...

Onlar da özlərindən gözlənilən igidliyi həyata keçirmişdilər...

Haqqa və həqiqətə kürəyini çevirənlərə Haqq və həqiqət nəsib olmazdı, axı!

Daima Haqq və Həqiqət yolunda olmağa qərar verənlər, Haqqın və Həqiqət yolunun da liderləri idilər.

Bilməyənlər, bilməzdi! Görməyənlər, görməzdi!

Anlamaq istəməyənlər isə heç bir zaman anlamayacaqdılar, başa düşə bilməyəcəkdilər!

Gözləri olmayanların görməyini gözləmək, ürəkləri olmayanlardan sevgi və şəfqət gözləmək fikrində deyildi gözü, ürəyi və sevgisi olanlar.

Cananı, canından öndə görənlərin minlərcə canı olsa da, cananı üçün böyük bir zövqlə fəda edərdilər. Onun yolunda olmaq və ölmək onların ən böyük arzuları idi.

Şəhadət sevgili ilə görüşməkdir...

Şəhid isə sevdiyi uğrunda özünü qurban verən insandır...

Şəhidlər sevgisini və eşqini şəhadətlə isbat edənlərdir. Ən dəyərli varlığını Allah uğrunda fəda edən şəhid üçün, əlbəttə ki, şəhadət ən böyük eşqdir, şəhid də ən böyük aşiqdir...

Şəhid bütün insanlığın xöşbəxtçiliyi üçün, hüzuru və qurtuluşu üçün həyatını ortaya qoyan əsl insandır...

Şəhid sevəndir və sevgisinin əvəzini də canı bahasına ödəyəndir...

Sevən sevdiyi ilə görüşmək üçün hər bir çarəyə baş vurar...

Onlar da elə etdilər...

Hz. Hübeyb ilə Hz. Zeyd şəhadəti qurtum-qurtum udmuşdular.

Rəci bölgəsində Asim, Mərsəd, Xalid və Müəttib həzrətlərinin udduqları kimi...

Mərruzzahran bölgəsində Hz. Abdullahın udduğu kimi...

Bax, belə dadmışdılar!

Belə udmuşdular...

Peyğəmbərimizin (s.ə.s) ayağına kiçicik bir tikanın batmasına dözə bilməyəcəkləri qədər sevirdilər Onu...

Onu elə sevirdilər ki, Onun üçün ölmək belə, çox xüsusi bir zövq verirdi onlara...

«**Anam, atam, hər şeyim sənə fəda olsun, ya Rəsulallah!**» deyirdilər və onun uğrunda canlarını da sevə -sevə fəda edirdilər.

Sevən sevdiyinə fəda etməzmi hər şeyini? Onlar da elə edirdilər!

«**Hər şeyim sənsən!**» deyirdilər...

Bu sözü deyənlər hər şeylərini o sevgi yolunda fəda etməyi də yaxşı bacardılar.

Hər şeyim sənsən deyən, hər şeyini hər şeyi uğrunda fəda etməyi də bilməliydi!

Bilmək kifayət deyildi, fəda etmək lazım idi.

Onlar da elə etmişdilər...

Onun yolunda olanlara da elə etmək yaraşırdı!

Bəs, bu sevgi və fədakarlıqdan, bizdə nə qədər var?

***Adəm SARAÇ***

*16 Şevval 1420 - 23yanvar 2000*

*Van*

## MÜNDƏRİCAT


Təqdimat .......... 9
Heyət .......... 15
Mürşidlər və Mücahidlər .......... 21
Tələ .......... 30
Arılar .......... 41
Yağış .......... 51
İtən Şəhid .......... 55
Qara Xəbər .......... 61
İki Əsir .......... 69
Üzüm .......... 75
Qırılan Zəncirlər .......... 81
Baxıb Görmək .......... 87
Hidayət .......... 99
Təslimiyyət .......... 104
Dar Ağacındakı Şəhadət .......... 111
Mələyin Gətirdiyi Salam .......... 130
Onun Üçün .......... 136